www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 oktyabr 2015-ci il Çərşənbə № 233 (6261) Qiymətı 40 qəpik

**Xəbər**

## Yoxlamaların 2 illik dayandırılması parlamentdə təsdiqləndi

yazısı səh.10-da

**Gündəm**

### İŞİD Azərbaycanın dəniz sərhədlərində - qorxunc gəlişmə



Terror qruplaşmasının Türkmənistana girməsi xəbəri yayılıb, sərhəddə qanlı döyüşlər gedir; Bakıdakı hökumət gərginliyinin daha bir səbəbi üzə çıxır...

yazısı səh.8-də

### Avtobusların marşrutunun dəyişdirilməsi Bakıda xaos yaradıb

yazısı səh.15-də

*İlhamiyyə Rza:*

### "Bu seçkidə özümə rəqib görmürəm"

yazısı səh.5-də

### Müsavatın 25 oktyabr mitinqinə icazə verildi

yazısı səh.6-da

### Yediyimiz çörəklərin tərkibindən xəbərdarıqmı?

yazısı səh.14-də

### Xüsusi xidmət orqanları bizi necə dinləyir...

yazısı səh.12-də

### Müsavat AXCP kimi Əli Kərimlini tanıdı

yazısı səh.6-da

### Əməkdaşımız ermənilərin girov götürdüyü soydaşlarımızın ailəsindən yazır

yazısı səh.13-də

### Eldar Mahmudovun oğlunun biznesi üzə çıxdı

yazısı səh.7-də

### İsveçrədə nazirlərin müalicəsi: 1 günü hətta 10 min frank...

yazısı səh.4-də

### Apelyasiya Məhkəməsi Yunuslarla bağlı qərar verdi

yazısı səh.2-də

## Eldar Mahmudovun bütün adamları nəzarətə alındı

# "MTN İŞİ"NDƏ YENİ ŞOK XƏBƏRLƏR - HƏBSLƏR, AXTARIŞLAR VƏ MÜƏMMA...

Nazirliyin ən məşhur generalları saxlanıldı, bəziləri ev dustağıdır; quruma nazirdən əvvəl müavin təyinatı oldu; Mədət Quliyev Milli Təhlükəsizlik Nazirliyində nəyi dəyişə bilər - ekspertlər danışır



yazısı səh.3-də

## Ziya Məmmədovun "müalicəsi" bitdi, əfv də olundumu?

Məlumata görə, səlahiyyətləri əlindən alınmış naziri məzuniyyətdən sonra iqtidarla heç də rahat olmayan söhbət gözləyir; onu Eldar Mahmudovla nə birləşdirir?

yazısı səh.7-də



Eldar Əzizov

### İcra başçısı işdən çıxarılan adaşını sərt tənqid etdi

yazısı səh.11-də



Sərdar Cəlaloğlu

### ADP sədrindən şok dövlət çevrilişi açıqlaması

yazısı səh.9-da



Rövşən İsmayılov

### Cahangir Hacıyevin bank sektorundakı sonuncu adamı da vəzifəsini itirdi

yazısı səh.10-da




# Məzahir Pənahovdan "Ayıq-sayıq olun" çağırışı

## Müsavat Partiyası isə seçki platformasını yaydı

**Dünən Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən xəbərə görə, iclasda Milli Məclisə seçkilərdə exit-poll keçirmək istəyən qurumların müraciətinə baxılıb.**



**MSK sədrinin müavini Natiq Məmmədov** bildirib ki, Azərbaycan seçki təcrübəsində exit-poll artıq reallığa çevrilib və bununla bağlı ölkədə ixtisaslaşmış qurumlar fəaliyyət göstərir. Onun təklifi ilə Müstəqil Araşdırmalar Mərkəzi, Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası exit-poll aparacaq təşkilatlar kimi qeydiyyata alınıb.

MSK sədri Məzahir Pənahov isə seçki bülletenlərinin çapının 21 oktyabrda başa çatacağını və 22 oktyabrda bülletenlərin paylanacağını bildirib. Onun sözlərinə görə, MSK-da 27 beynəlxalq təşkilatdan 318 beynəlxalq müşahidəçi qeydə alınıb və bu müşahidəçilər 42 ölkəni təmsil edir.

Məzahir Pənahov gənclərin seçkidə fəallığı ilə bağlı keçirilən tədbirdə isə bildirib ki, müəyyən xarici qüvvələr bəzi seçicilərin narazılığından istifadə etməyə çalışırlar.

Bu arada Müsavat Partiyası özünün seçki platformasını yayıb. "Azad İnsan - Azad dövlət!" şüarı ilə başlayan seçki platforması indiyə qədər Müsavatın konstitusiya islahatlarına, iqtisadi və sosial islahatlara dair hazırladığı çoxsaylı proqramlarda təsbit edilən əsas ideya və yanaşmaları əks etdirir. Seçki platformasında Azərbaycanın inkişafı üçün ilk növbədə demokratiyanın qurulmasının vacibliyi, Avropa Birliyinə inteqrasiyanın zəruriliyi vurğulanır.

Platformada Qarabağ probleminin həlli ilə bağlı ayrıca bölüm yer alır. Bildirilir ki, ölkədə demokratiya qurulmayınca Qarabağın azad olunması, sülh danışıqlarının ədalətlə nəticələnəcəyi mümkün deyil.

Seçki platformasında bəyan edilir ki, əhalinin ağır sosial vəziyyəti nəzərə alınaraq, 5 min manatadək olan kredit borcları, 10 min manatadək olan kredit borclarının faizləri ləğv edilməlidir. İstehsalın inkişafına, vətəndaşın öz evinin inşasına və övladlarının təhsilinə xərclədiyi vəsait vergidən azad edilməlidir. Ölkəmiz tezliklə Dünya Ticarət Təşkilatına daxil olmalıdır. Bu islahatları dəstəkləyən beynəlxalq qurumlarla əməkdaşlıq səviyyəsi yüksəldilməlidir. Səhiyyə və təhsil sisteminin inkişafı ilə də bağlı sənəddə geniş yazılıb.

❑ **E.SEYİDAĞA**

# Azərbaycan Gürcüstanı qazla təmin etmək gücündə deyil?



**Gürcüstanda "Qazprom"la danışıqlar və Azərbaycan qazına alternativ mənbələrin axtarışı ətrafında ziddiyyətli situasiya davam edir. Virtualaz.org saytı xəbər verir ki, digər hökumət rəsmilərinin "Qazprom"la danışıqların ancaq Ermənistana qaz tranziti ilə əlaqəli olduğuna dair bəyanatlarına baxmayaraq bu gün energetika naziri Kaxa Kaladze Rusiyadan əlavə qaz almağa ehtiyac olduğunu bildirib.**

Bununla belə, nazir deyib ki, hələlik Rusiyadan hansı həcmdə və hansı qiymətə qaz alınacağını bilmir.

K.Kaladze müxalifətin bu məsələ ətrafında qeyri-sağlam eyforiya qaldırdığını deyərək bildirib ki, Azərbaycanda Gürcüstanın qaza olan tələbatını ödəmək üçün resurs yoxdur. Ona görə də Gürcüstan Rusiyadan əlavə həcmdə qaz almalıdır.

"Nəyə görə əlavə qaz həcmi yoxdur? Bunu Azərbaycandan soruşmaq lazımdır. Onda mən sizdən soruşuram ki, nəyə görə Azərbaycan "Qazprom"la müqavilə bağlayır? Bir halda ki, onların öz tələbatını ödəməyə bəs edəcək qədər qazı var, onda niyə Rusiyadan qaz alırlar?"- deyə nazir sual edib.

# Spirtli içkidən zəhərlənən iki qardaşdan biri öldü

**Azərbaycanda iki qardaş spirtli içki və psixotrop maddələrin təsirindən zəhərlənib. Daxili İşlər Nazirliyinin saytında bildirir ki, Bakı şəhəri Nəsimi rayonunun Mərdanov qardaşları küçəsindən Xırdalan şəhər sakinləri, əvvəllər məhkum olunan Tahir Məmmədov və qardaşı Məmməd spirtli içki və psixotrop maddələrin təsirindən zəhərlənmə ilə xəstəxanaya gətirilib.**

Tahir Məmmədov xəstəxanada ölüb, Məmməd Məmmədova ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

# Toyundan iki gün əvvəl itkin düşən Qəbələ sakini sağdır

**Müəmmalı şəkildə itkin düşən Qəbələ rayon sakininin sağ olduğu məlum olub. APA-nın yerli bürosunun xəbərinə görə, rayonun Soltannuxa kənd sakini, 1984-cü il təvəllüdlü Hətəmov Ramil Əhməd oğlu oktyabrın 1-də yaşadığı evdən çıxaraq Qəbələ şəhərinə gedib və bir daha geri qayıtmayıb.**

Atası Əhməd Hətəmov APA-nın yerli bürosuna bildirib ki, Ramil Hətəmov bankomatdan pul götürmək və xarab olan mobil telefonunu düzəltdirmək üçün rayon mərkəzinə gedib və özünün toy mərasiminə hazırlıq üçün müəyyən işlər görəcəyini bildirib. Heç bir əqli və psixoloji problemi olmayan Ramil Hətəmovun itkin düşməsi barədə ailə üzvləri Qəbələ Rayon Polis Şöbəsinə məlumat veriblər. İyirmi gündür ki, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən onun tapılması üçün axtarış tədbirləri görülsə də, hələ ki bir nəticə əldə edilməyib.

Ailənin toya hazırlaşdığı bir vaxtda onun gözlənilmədən qaçıb gizlənməsi hamını şoka salıb.

Oktyabrın 20-də isə Hətəmovlar ailəsinə onun sağ olması barədə məlumat verilib. Əhməd Hətəmov deyib ki, ailənin yaxın qohumu oğlunu dünən səhər saatlarında Bakı şəhərində, "Əhmədli" metrosunda gördüyünü bildirib. O, görüşmək üçün Ramilə yaxınlaşsa da, onun qaçaraq ərazini tərk etdiyini bildirib. Ə. Hətəmov oğlunun onu aldatdığını deyib: "Toydan sonra Bakıdakı evində yaşayacaqdı. Oğlum mənə dedi ki, neçə vaxtdır ki, guya Bakıdakı evdə təmir işləri görülüb, işlər başa çatdırılıb. Sonradan gedib gördüm ki, evdə heç bir təmir işləri görülməyib. Ailənin toy mərasiminə hazırlaşdığı bir vaxtda onun gözlənilmədən qaçıb gizlənməsi hamını şoka salıb".

Ramilin qonşuları Saleh Ağadaşov və Şahin Əlifov da onun heç kimlə şəxsi probleminin olmadığını, sakit təbiətli bir insan olduğunu bildiriblər.

Ramil Hətəmovun toy mərasimi oktyabrın 3-nə təyin olunubmuş. Ötən ay isə onun nişanlısının toy mərasimi olub.

Əhməd Hətəmov oğlunun qazancının yaxşı olduğunu, heç kimə borcunun və heç kimlə şəxsi ədavətinin olmadığını bildirib.

Faktla bağlı Qəbələ Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Bu gündən hava soyuyacaq

**Oktyabrın 21-də günortadan başlayaraq, ölkə ərazisində havanın temperaturu aşağı düşəcək.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, oktyabrın 21-də Bakıda və Abşeron yarımadasında havanın tutulub açılacağı, axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gündüz şimal-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 10-13, gündüz 15-18, Bakıda gecə 11-13, gündüz 15-17 dərəcə isti olacaq.

Oktyabrın 21-23-də Abşeron yarımadasında əksər meteoroloji amillərin müləyim tərəddüdü meteohəssas insanlar üçün nisbətən əlverişli olsa da, rütubətli hava şəraitinin üstünlüyü bəzi meteohəssas insanlar narahatlıq yarada bilər.

Azərbaycanın rayonlarında - əsasən dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 16-21, dağlarda gecə 3-8, gündüz 9-14 dərəcə isti olacaq.

# Yunusların cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə qaytarılıb

**Bakı Apelyasiya Məhkəməsində Sülh və Demokratiya İnstitutunun (SDİ) həbsdə olan direktoru Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə ilkin baxış iclası davam etdirilib.**

APA-nın məlumatına görə, hakim Vüqar Məmmədovun sədrlik etdiyi məhkəmə iclasında Leyla Yunusun vəkili Elçin Sadıqov cinayət işinin protokollarında şahidlərin ifadələrində təhrifə yol verildiyini bildirib. Bundan sonra hakimlər qərar qəbul ediblər. Qərara görə, həmin məsələni araşdırmaq üçün cinayət işinin materialları Bakı Ağır Cinayətlər Məhkəməsinə qaytarılıb. Proses qeyri-müəyyən vaxtadək təxirə salınıb. Hakimlər bildirib ki, Bakı Ağır Cinayətlər Məhkəməsində həmin məsələ araşdırıldıqdan sonra proses davam etdiriləcək.

Qeyd edək ki, Leyla Yunus Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 178.3.2-ci (Dələduzluq (külli miqdarda ziyan vurmaqla törədildikdə)), 192.2.2-ci (Qanunsuz sahibkarlıq (külli miqdarda gəlir əldə etməklə törədildikdə)), 213.2.2-ci ((Vergi ödəməkdən yayınma) külli miqdarda törədildikdə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri, Arif Yunus isə 178.3.2-ci (dələduzluq) və 274-cü (Dövlətə xəyanət) maddələri ilə təqsirləndirilir. Hər iki şəxsin barəsində olan Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət) maddəsi üzrə cinayət işi ayrı icraata verilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust tarixli hökmü ilə Leyla Yunus 8 il 6 ay, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdə həmçinin onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi öz əksini tapıb.

# Goranboyda dəhşət: iki nəfər maşında diri-diri yandı

**Bakı-Qazax magistral yolunda 2 nəfərin ölümü ilə nəticələnən yol-nəqliyyat qəzası baş verib. Hadisə magistral yolun Goranboy rayonunun Borsunlu kəndi ərazisindən keçən hissəsində qeydə alınıb. Yolla hərəkətdə olan "Mercedes" markalı avtomobil yolun kənarına aşıb. Qəza zamanı avtomobil yanıb və içərisində olan iki nəfər ölüb.**

Qəzanın baş vermə səbəbləri araşdırılır (APA).

# Samir Şərifov maaşların artacağı vədini verdi

**Azərbaycanda güzəşt tətbiq edilən gəlirlərin yuxarı həddinin artırılması 500 mindən çox insana aylıq gəlirlərini 3-9 faiz artırmağa imkan verəcək.**

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin plenar iclasında deyib.

Qeyd edək ki, Milli Məclisə təqdim edilən Vergi Məcəlləsinə əlavə və dəyişikliklərə əsasən, gəlir vergisinə cəlb edilən fiziki şəxsin aylıq gəlirinin məbləği vergidən azad edilən hissə çıxıldıqdan sonra 250 manatdan 2500 manatadək artırılıb ("Trend").

# Ədliyyə Nazirliyi: AXCP-nin qurultayla bağlı müraciəti araşdırılır

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının sentyabrın 27-də keçirilən qurultayla bağlı müvafiq məlumatların dövlət reyestrinə daxil edilməsi ilə bağlı müraciəti Ədliyyə Nazirliyində araşdırılır.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, sözügedən müraciətə baxılır və yaxın vaxtlarda cavab veriləcək.

Nazirlikdən bildirilib ki, Razi Nurullayevin AXCP adına keçirdiyi qurultayla bağlı müraciət Ədliyyə Nazirliyinə daxil olmayıb.

Xatırladaq ki, AXCP sədri Əli Kərimlinin sabiq müavini olan Razi Nurullayev əsl AXCP-nin onun rəhbərliyi ilə yarandığını bəyan edib və partiya üzvlərini öz ətrafında birləşməyə çağırıb. O, oktyabrın 18-də bu təşkilatın qurultayını keçirib və sədr seçilib.

# Xubanov Azərbaycanda tutulub

**Gürcüstanda adam öldürdüyünə görə axtarışa verilən şəxs Azərbaycanda tutulub.**

APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gürcüstan Cinayət Məcəlləsinin 19-108-ci maddəsi (qəsdən adam öldürmə) ilə axtarışda olan Gürcüstan vətəndaşı Nəbi Xubanov tutulub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Eldar Mahmudovun bütün adamları nəzarətə alındı



**Oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində (MTN) gecəyarısı həyata keçirilən xüsusi əməliyyatla bağlı müzakirələr səngimir. Müzakirələrdə sahibkarların boğulmasından tutmuş “Rusiya izi” “İsrail xüsusi xidmət orqanlarına məlumat ötürmə”, “vəhhabi məsələsi” və digər məqamlara toxunulur, hər bir versiyanı inandırıcı edən arqumentlər səsləndirilir.**

# “MTN işi”ndə yeni şok xəbərlər - həbslər, axtarışlar və müəmma...

## Nazirliyin ən məşhur generalları saxlanıldı, bəziləri ev dustağıdır; quruma nazirdən əvvəl müavin təyinatı oldu; Mədət Quliyev Milli Təhlükəsizlik Nazirliyində nəyi dəyişə bilər - ekspertlər danışır

Prezident İlham Əliyevin gözlənilməz 17 oktyabr qərarı ilə Eldar Mahmudov nazir vəzifəsindən uzaqlaşdırılandan sonra bu posta kimin təyin olunacağı da dartışılan mövzulardandır.

**MTN-də 1-ci müavin postu yaradıldı və...**

Oktyabrın 20-də Milli Təhlükəsizlik Nazirliyinin strukturunda dəyişiklik olunub. Dəyişikliyə əsasən milli təhlükəsizlik nazirinin 1-ci müavini ştat vahidi yaradılıb.

**Mədət Quliyev MTN rəhbərliyinə gətirildi**

Prezidentin imzaladığı digər sərəncama əsasən yeni yaradılmış posta Penitensiar Xidmətin rəisi Mədət Quliyev təyin olunub. M.Quliyevə milli təhlükəsizlik naziri vəzifəsinin icrası da tapşırılıb. Hələlik nazir postu boşdur və yaxın günlərdə bu posta təyinat olacağı da gözlənilir. Namizədlər sırasında Bakı Şəhər Baş Polis İdarəsinin sabiq rəisi, hazırda prezidentinin müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri şöbəsinin müdiri Məhərrəm Əliyev, milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəis müavini Əli Nağıyev, Naxçıvan MR-in milli təhlükəsizlik naziri Vəli Ələsgərov, prezidentin müdafiə məsələləri üzrə köməkçisi Vahid Əliyev və daxili işlər nazirinin müavini Vilayət Eyvazovun adları hallanır. Amma son söz prezidentindir və bu baxımdan nazir təyin ediləcək şəxsin adı qeyd olunan siyahıda olmaya bilər.

**Baş Prokurorluq “MTN işi” ilə bağlı rəsmi açıqlama yaydı**

**Oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində həyata keçirilən xüsusi əməliyyat haqda Baş Prokurorluq rəsmi məlumat yayıb. Həmin məlumatda deyilir:**

“Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb. Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə nazirliyin bir qrup əməkdaşı tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini pozmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr edilməsi, ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərinin pozulmasına əsaslı şübhələr müəyyən olunub. Cinayət işi üzrə Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2 - vəzifə səlahiyyətlərindən sui-istifadə, 309.1- vəzifə səlahiyyətlərini aşma və 302.2- əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin müvafiq qərarları ilə barələrində həbs-qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir”.

**“MTN işi” üzrə tutulanları Səbayel məhkəməsinə aparıblar - adlar!!!**

Rəsmi məlumatda “MTN işi” üzrə həbs olunan vəzifəli şəxslərin adları açıqlanmır. “Yeni Müsavat”a özəl mənbədən daxil olan məlumata görə, MTN-in saxlanılan yüksək çinli şəxsləri barəsində həbs-qətimkan tədbirinin seçilməsi haqda təqdimata Səbayel Rayon Məhkəməsinin hakimi Rauf Əhmədov baxıb. Tutulan şəxslər barəsində ilkin olaraq 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Məhkəmədən Nərimanov Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Təcridxanasına aparılan sabiq MTN-çilər sonradan 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüblər. Saxlanılanlar sırasında milli təhlükəsizlik nazirinin müavini Hilal Əsədov, Baş İstintaq İdarəsinin rəis müavini Sahib Ələkbərov, Akif Çovdarov, İlqar Əliyev, Natəvan Mirvətova, Fərhad Atayev və polkovnik Füzuli Ələsgərzadənin adları çəkilir.

**Hilal Əsədovun evində axtarış aparılması haqda xəbər var**

Adı “MTN işi” üzrə saxlanılanlar sırasında çəkilən general-leytenant Hilal Əsədovun evlərində axtarış aparılması haqda redaksiyamıza xəbər daxil olub. Məlumatlı mənbənin verdiyi bilgiyə görə, adətən 2 mülki geyimli şəxsin müşayiət etdiyi H.Əsədov bu dəfə Bakının mərkəzindəki mənzilinə 10-a yaxın şəxslə gəlib. 28 May küçəsi, ev 18 ünvanında aparılan axtarışdan sonra H.Əsədov həmin şəxslərin əhatəsində naməlum istiqamətə aparılıb. Axtarış zamanı mənzildən sənədlər götürülüb.

**XİN səfirliklərdə çalışan MTN-çilərlə bağlı açıqlama verdi**

**İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı keçmiş səfiri Arif Məmmədov milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifədən azad edilməsindən sonra açıqlama yayaraq bildirmişdi ki, xarici ölkələrdə yerləşən səfirliklərdə çalışan MTN əməkdaşlarının bir qismi vətənə dönməyəcək. Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev məsələ ilə bağlı apa.az-a açılama verib. Mətbuat katibi deyib:** “Beynəlxalq diplomatik praktikaya və dövlətlərarası əməkdaşlığın səviyyəsinə uyğun olaraq, diplomatik nümayəndəliklərdə digər dövlət qurumlarının əməkdaşlarının da təmsil olunması adi haldır”.

**H.Hacıyevin sözlərinə görə, bu çərçivədə ölkədən və ikitərəfli əməkdaşlığın xarakteri və səviyyəsindən asılı olaraq Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Gömrük Komitəsi və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları da təmsil olunurlar:** “Qarşılıqlılıq prinsipi əsasında digər dövlətlərin də Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərində həmin ölkələrin müvafiq qurumlarının əməkdaşları xidmət edirlər”.

**Prezidentin səbrini daşdıran son damla nə olub?**

Eldar Mahmudovun tutduğu postdan qəfil uzaqlaşdırılmasında sahibkarların birbaşa prezidentə şikayətinin rol oynaması haqda da xəbər var. Bildirilir ki, prezidentin rəhbərliyi ilə keçirilən son müşavirədə məmurlara “sahibkarlığın inkişafına mane olmayın” xəbərdarlığına əməl olunmayıb. Sahibkarlar MTN-in heç bir əsas olmadan onların işinə qarışmasından birbaşa ölkə başçısına şikayətlər ediblər. Bundan sonra xüsusi əməliyyatın gecikdirilmədən həyata keçirilməsinə göstəriş verilib. Qaynağımız bildirib ki, əslində əməliyyatın keçirilməsi seçkilərdən sonra, noyabrın ortalarına planlaşdırılıbmış...

**MTN-dəki “təmizləmə”də “Rusiya izi”...**

Bununla belə, əməliyyatın baş tutmasında “Rusiya izi”nin olması da istisna olunmur. Qeyd edilir ki, MTN-dəki “təmizləmə”nin Rusiyanın Suriyadakı müharibəyə qatılmasından sonra baş tutması təsadüfi deyil. Məlumdur ki, vəhhabilik Rusiya ərazisində Çeçenistan müharibəsindən sonra qeyri-rəsmi qadağan olunub, vəhhabilərə qarşı antiterror əməliyyatları həyata keçirilib. Bu gün Rusiyada, xüsusən Dağıstan və Çeçenistanda şalvarı qısa, saqqalı uzun şəxsləri görmək mümkün deyil. Çünki belə şəxslər dərhal hüquq-mühafizə orqanlarına çağırılır, ona xarici görkəminə görə digər vətəndaşlardan fərqlənməmək tapşırılır. Ölkə sərhədlərini tərk edəcəyi təqdirdə geri qayıtmamaq tələb olunur. Suriya hakimiyyətinə Rusiyanın hərbi-siyasi dəstək verdiyi bir vaxtda Azərbaycandan Bəşər Əsədə qarşı döyüşmək üçün xeyli şəxsin getməsi də bir faktdır.

Yeri gəlmişkən, adının açıqlanmasını istəməyən hökumətyönlü deputatlardan biri musavat.com-a açıqlamasında MTN-in sabiq rəhbərliyini vəhhabilərin Azərbaycanda qol-qanad açmasına şərait yaratmaqda suçlayıb. Deyib ki, MTN əməkdaşları vəhhabilərdən pul alaraq onları sərbəst gəzib dolaşmasına şərait yaradıblar. Bu baxımdan MTN rəhbərliyinin cəzalandırılmasında “Rusiya izi”nin olması da mümkündür.

**Sabiq prezidentdən açıqlama**

Məsələ ilə bağlı mətbuatda müxtəlif fikirlər, versiyalar tirajlansa da, hələ ki E.Mahmudovun aqibəti ilə bağlı qaranlıq məqamlar var. Bundan başqa, diqqət çəkən məsələlərdən biri də onun yerinə təyinatın olmamasıdır.

**Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov da Eldar Mahmudovun vəzifədən çıxarılmasına münasibət bildirib. O, aznews.az-a açıqlamasında deyib ki, belə ciddi qərarlar səbəbsiz verilmir:** “Eldar Mahmudovun işdən çıxarılması ilə bağlı heç bir fikir deyə bilmərəm. Çünki işin içində deyiləm. Ancaq ciddi qərarları səbəbsiz qəbul etməzlər. Görünür, ortada çox ciddi məsələlər var”.

**“Belə olan halda Azərbaycanı hansısa təhlükə gözləyirmi” sualına A.Mütəllibov belə cavab verib:** “Heç bir təhlükə olmayacaq”.

**Tanınmış hüquqşünas deyir ki....**

**MTN-də həyata keçirilən xüsusi əməliyyata tanınmış hüquqşünas Müzəffər Baxış münasibətini açıqlayıb. M.Baxış deyib ki, hüquq-mühafizə orqanları əməkdaşlarının, xüsusən də MTN əməkdaşlarının cinayətkar əməlləri haqda mətbuatda dəfələrlə yazılar dərc olunub:** “Təkcə MTN deyil, digər səlahiyyətli qurumların, hətta Kənd Təsərrüfatı Nazirliyi yanında Fitosanitar Xidmət əməkdaşlarının sahibkarların başına açdığı oyunlar da var. Sahibkarlardan Tarif Şurasının rəsmi açıqladığı tariflərdən 10, 20, hətta 50 qat artıq pul alırlar. Adını da dövlət rüsumu qoyurlar. MTN-də baş verən cinayətlər, xüsusən sahibkarlara qarşı baş verənlər bir çoxlarına bəlli idi. Amma heç kim qorxusundan bunu deyə bilmirdi. 1-2 adam vardı ki, bunu deyirdi, mətbuatda çıxış etməkdən çəkinmirdi. Hüquq-mühafizə orqanlarının, xüsusən MTN-in cinayətləri haqda deyilib. Şəxsən mən MTN-in cinayətləri barədə mətbuata demişdim ki, MTN-in girişində 2 mərtəbəli bina var. O binanın 2-ci mərtəbəsində ən xırda sahibkardan tutmuş ən böyük sahibkara qədər MTN əməkdaşlarının qəbuluna çağırılırdılar. Ora çağırılan sahibkara konkret rəqəm demirdilər. Bir kağız parçasını sahibkarın qabağına qoyurdular. Kağızda tutaq ki, 1 milyon yazırdılar. Bazarlıq edirdilər. Tutaq ki, sahibkar deyirdi ki, bu qədər vəsaiti verməyə gücü çatmır, düşürdülər 800 minə, bu məbləği də ödəyə bilmirdisə 500 minə qədər endirirdilər. Belə alverlər gedirdi və sahibkarlardan pul qoparırdılar. Bizə konkret faktlar da bəllidir. Azərbaycanın hüquq ictimaiyyətinə, ölkədə baş verənlərlə maraqlananlara MTN əməkdaşlarının hətta obyektlərə silahlı basqınlar təşkil edib pul aldıqları haqda faktlar məlumdur. Bir mebel dükanından 200 min manat pulu götürüb gediblər. Şəmkirdə 1 sahibkardan 2 milyona yaxın pul alınıb. Bunlar az qala Azərbaycan ictimaiyyətinə bəlli olan haldır”.

**M.Baxış digər hüquq-mühafizə orqanlarında da belə halların mövcud olduğunu, vətəndaşları əsassız olaraq cinayət məsuliyyətinə cəlb olunması hallarının geniş yayıldığını, məhkəmələrin günahsız insanlara bəraət hökmü verməkdən çəkindiyini də açıqlayıb:** “Sahibkarı tuturlar, qanunsuz olaraq ondan pul tələb edirlər. Pulu vermədisə ən ağlasığmaz cinayətdə suçlayıb ittiham elan edirlər. Günahı bizneslə məşğul olmasından o yana keçməyən sahibkar 3 ay, bəzən daha artıq müddətə həbsdə saxlanır, əmlakları satdırıb pulunu alıb işi məhkəməyə yollayırlar. İstintaq dövründə pulunu aldıqları sahibkarın məhkəmədən şərti olaraq azad olunmasına şərait yaradırlar. Pul verə bilməyənlər isə uzun illər azadlıqdan məhrum edilir. Budur reallıq. Bu adamlar Azərbaycan sahibkarlarını, ictimaiyyətini, insanını əzməklə məşğuldular”.

**M.Baxış son həbslərin sahibkarlara qarşı qanunsuzluqlarla yanaşı, digər məsələlərə də söykəndiyini açıqladı:** “Yaxın zamanlarda Azərbaycan ictimaiyyəti əsl həqiqəti biləcək. Gələcəkdə belə halların baş verməməsi üçün hüquqi dövlət quruculuğu üçün real addımlar atılmalı, qanunun aliliyi təmin edilməlidir”.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015

# Biz "azəri" deyilik...

## Firudin Cəlilov: "Gərək alimlər müəyyənləşdirsin ki, Azərbaycan türkü, azər türk adlandırılaq, yoxsa ümumiyyətlə, azər sözünü işlətməyək"



**Azərbaycanın həll edilməmiş məsələlərindən biri də milli kimliklə bağlıdır. Hətta "bir millət iki dövlət" dediyimiz qonşu Türkiyədə Azərbaycan türklərini "azəri" kimi təqdim edirlər. Ancaq danılmaz fakt odur ki, biz türkük. Bəs əslində necə adlandırılmalıyıq? Azərbaycanlı türkü, yoxsa sadəcə olaraq, türk?**

Hamıya bəllidir ki, Azərbaycan ərazi adıdır, millət adı deyil. Bizim azərbaycanlı adlandırılmağımız SSSR-nin böyük təxribatlarından biri idi və bir çox türk millətlərinin adını dəyişdirməklə insanlara milliyyətlərini unutdurmaq istəyirdilər. Artıq bir çox vətəndaşlar Türkiyənin bizi "azəri" adlandırmasını milli qürur məsələsinə də çevirib.

Azərilər əslində İran ərazisində yaşayan, köçəri bir tayfadır. Bu üzdən bizim "azəri" adlandırılmağımız qətiyyən doğru deyil...

**Keçmiş təhsil naziri, türkoloq-alim, filologiya elmləri doktoru Firudin Cəlilov** bütün bəlanın azərilərin fars mənşəli bir tayfa olduğu düşüncəsindən irəli gəldiyini dedi: "Bu elmi bir məsələdir. Avropalılar, ingilislər də bu cür yazır. Bütün bəla azərilərin fars mənşəli bir tayfa olduğu düşüncəsindən irəli gəlir. Axı bunu kim sübut edib ki, azəri fars mənşəli bir tayfa olub. Onu yalandan ortalığa atıb fırladırlar. Ona görə də bu bir az qəliz, elmi bir məsələdir. Gərək alimlər müəyyənləşdirsin ki, Azərbaycan türkü, azər türk adlandırılaq, yoxsa ümumiyyətlə, azər sözünü işlətməyək. Mütəxəssislərin oturub bir qərara gəlməsi lazımdır. Bu qərar olmadıqca bu cür narazılıqlar olacaq. 1936-cı ilə qədər bizim pasportlarda milliyyət türk yazılırdı. Biz də parlamentdə qərar qəbul etdik ki, 1936-cı ilə qədər şəxsiyyət pasportlarda millətin, dilin adı necə türk yazılıbsa, indi də elə olsun. Hətta o vaxt mən dərsliklərin üstündə də türk dili yazdırırdım. Sonradan bunu ləğv etdilər. İlk öncə özümüz qərar verməliyik ki, bizi necə adlandırsınlar, sonra Türkiyədən və digər dövlətlərdən bizə elə müraciət edilməsini istəməliyik. Azərilərin fars mənşəli, hətta qaraçı tayfası olduğu yazılır, deyilir. Ancaq 1925-ci ildə farsların hakimiyyətə gəldiyi gündən bunu ortalığa atıblar. Bunu da Anadoludakı türklərlə Azərbaycandakı türkləri bir-birindən ayırmaq üçün ediblər. Tarixdə farslarda azəri adında tayfa yoxdur. Azər, Xəzər bunlar eyni sözlərdir və qədim türklərdir. Məsələn, türkmənlər bizə azərbaycanlı demir, xəzərbaycanlı deyir".

❑ **Günel MANAFLI**

# Mahmudovun bildiyi sirlər dövləti təhdid edirmi?

## Ekspertlər fərqli mövqe bildirirlər, sirlərin yayılmaması barədə öhdəlik olsa da, nəzarət vacibdir

**Milli təhlükəsizlik naziri Eldar Mahmudov vəzifəsindən uzaqlaşdırılandan sonra bir sual da maraq doğurur. Mahmudovun bildiyi hansısa sirlər dövləti təhdid edirmi? Yaxud hansısa məmurun dövləti təhdid edəcək sirləri yaymasının qarşısı necə alına bilər? Ekspertlər bununla bağlı fərqli fikirdədirlər.**

**Keçmiş MTN əməkdaşı Ərəstun Oruclu** məsələ ilə bağlı musavat.com-a bildirib ki, E.Mahmudov dövləti təhdid edən hansısa sirləri aça bilməz: "Düşünmürəm ki, dövlətin xüsusi xüsusi xidmət orqanının başında dayanmış adam dövləti təhdid edəcək sirləri açmaq iqtidarındadır. Məsələ burasındadır ki, dövlət dövlətdir və heç kəs dövlətlə dövlətçilik edə bilməz. Xüsusilə də yüksək postdan kənarlaşdırılmış və haqqında çox ziddiyyətli məlumatlar dolaşan şəxs bunu edə bilməz. Praktikada belə şey olmayıb. Belə olmur ki, hansısa təhlükəsizlik orqanının rəhbəri və yaxud nazir vəzifədən kənarlaşdırılır və ona bir təhlükə yaranır. O da özünü müdafiə etmək üçün dövlət üçün təhdidedici sirləri açır və bununla da özünü müdafiə etmiş olur. Ona görə də düşünmürəm ki, belə şeylər açıla bilər. Ola bilər hansısa ötürülmüş məlumatlar olsun, kompromat savaşı başlansın. Amma dövləti təhdid edəcək məsələlər haqqında mən tam əminəm ki, heç bir şey ola bilməz".

**Keçmiş MTN əməkdaşı Sülhəddin Əkbər isə qeyd edib ki, hər bir vəzifəli şəxsin heç şübhəsiz ki, dövləti təhdid edəcək sirləri olur:** "Xüsusi xidmət orqanının rəhbəri təbii ki, həm dövlət sirlərinə, həm fərdi sirlərə, həm də xidməti sirlərə sahibdir. Bu baxımdan bu, təbii olan bir prosesdir. Xüsusi xidmət orqanının başında duran şəxs şübhəsiz ki, çox mühüm və ciddi sirlərə malik olur".

Təhdidlərin qarşısını hansı yollarla almağın mümkünlüyünə gəldikdə isə o bildirib ki, xüsusi xidmət orqanı rəhbəri və əməkdaşının sirlərin yayılmaması haqqında öhdəliyi var: "Amma bu, o demək deyil ki, həmin şəxs öhdəliyə sonuna qədər əməl edir. Ona görə də o istiqamətdə müxtəlif hüquqi, həm də əməliyyat tədbirləri həyata keçirilməlidir. Eyni zamanda bu sirlər operativ əhəmiyyətini itirənə qədər həmin şəxs yaxın və uzaq nəzarətdə saxlanılır".

❑ **RÖYA**

**Xəbər verdiyimiz kimi, məzuniyyətdə olduğu dövrdə rəhbərlik etdiyi qurumun səlahiyyətləri alınan nəqliyyat naziri dünən işə çıxıb. "Yeni Müsavat"a müsahibə verən Nəqliyyat Nazirliyi mətbuat xidmətinin rəhbəri Namiq Həsənov deyib ki, nazir Ziya Məmmədov oktyabrın 23-nə qədər rəsmi olaraq əmək məzuniyyətindədir. Bu günlər ərzində isə Z.Məmmədov İsveçrədə müalicədə olub.**



# İsveçrədə nazirlərin müalicəsi: 1 günü hətta 10 min frank...

## Qiymətlər Almaniya və Fransa ilə müqayisədə daha yüksəkdir, çünki...

Bu günə qədər Azərbaycanda nazir, məmur səviyyəsində insanların xəstələnən kimi yolunu Avropaya salması ənənəyə çevrilib. Rəsmi kanallarda, saytlarda Avropanı qaralayanlar səhhətlərində ən kiçik narahatçılıq olan kimi bu ölkələrə yollarını salıblar.

"Yeni Müsavat" isə Z.Məmmədovun İsveçrədə üz tuta biləcəyi klinikaları, ordakı qiymətləri araşdırıb və ortaya ilginc detallar çıxıb. Öncə ondan başlayaq ki, müasir elmi araşdırmalar İsveçrə əhalisinin uzunömürlülük sahəsində liderlik etdiyini ortaya qoyub. Bəs bu xalqın uzunömürlülüyünün arxasında dayanan məqam nədir? Söhbət iki əsas faktordan gedir: yüksək ekoloji şərtlər və Avropanın ən inkişaf etmiş tibbi.

İsveçrə uzun illərdir ki, farmakologiya və müalicə sahəsində liderlik edir. İsveçrə alimləri daim tibbin müxtəlif sahələrində, yeni tibbi müalicə üsulları, metodika və texnologiya ilə bağlı elmi araşdırmalar həyata keçirirlər.

İsveçrənin tibb sahəsində lider olmasının sübutlarından biri də Qırmızı Xaç və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mərkəzi bazasının bu ölkədə yerləşməsidir. Bu ölkədə müalicə olduqca yüksək standartlara cavab verir. Hətta xərçəngin müalicəsi ilə bağlı İsveçrənin rəqib tanımadığı da statistik məlumatlar sırasındadır. Burada hər xəstə üçün individual dərmanlar nəzərdə tutulur. Bundan başqa, İsveçrədə pasientlərə tam məxfilik vəd edilir. Məhz bu səbəbdən ictimaiyyət üçün maraqlı olan şəxslər, kral ailəsinin üzvləri, biznesmenlər, siyasətçilər, incəsənət adamları... müalicə üçün bu ölkənin qapılarını döyür.

**Ölkənin ən məşhur klinikalarının siyahısına nəzər yetirək.**

**Jenolye klinikası şəbəkəsi** - Bu, İsveçrə ərazisindəki ən böyük klinika şəbəkəsi adlanır və özündə 12 tibb müəssisəsini əhatə edir.

**Hirslanden klinikası şəbəkəsi** - masştabına və nüfuzuna görə bu şəbəkə də seçilmişlərdən sayılır. Dünya üzə onkologiya sahəsində özünü təsdiqləmiş klinikalardan sayılır.

Davos klinikası - əsasən allergik və ağciyər xəstəlikləri sahəsində ixtisaslaşıb.

**Lyaklinik klinikası** - burada isə pasiyentlərə daha çox estetik müalicədə plastik cərrahiyyənin bütün növləri üzrə xidmətlər təklif olunur.

**Leman klinikası** - daxili orqanların əməliyyatı sahəsində peşəkar sayılır.

**Jeneral Bolye klinikası** - Cenevrənin mərkəzindən bir qədər aralıda, yaşıllıq bir ərazidə yerləşir. Şəhərdə və kantonda, özəl klinikalar arasında ən irimasştablıdır. Klinika ilə 40-dan artıq yüksək səviyyəli mütəxəssis əməkdaşlıq edir. Onlar müasir diaqnostik kompleksləri istifadə sahəsində peşəkarlaşıblar.

Qiymətlərə gəlincə, İsveçrədə müalicə Almaniya və Fransa ilə müqayisədə daha yüksəkdir. Təbii ki, avronun və İsveçrə frankının kursunu nəzərə almaqla qiymətlərlə bağlı az-çox təsəvvür formalaşa bilər. Amma deməliyik ki, ümumən "İsveçrədə müalicə qiymətləri" deyə bir anlayış yoxdur. Çünki hər klinikanın öz preyskurantı var. Qiymət fərqi isə heç şübhəsiz ki, klinikanın statusundan, xəstəxanada qalma müddətindən, pasientin durumundan və sair kimi faktorlardan asılıdır. Odur ki, aşağıda qeyd etdiyimiz qiymətlər ümumiləşdirilmiş sayılır:

**Kardiologiya**

Ümumi müayinə - 3500 - 10.000 frank (1-4 gün)

Klapan dəyişilməsi -50.000-60.000 frank (12 gün)

Kordiostimulyator- 25.000 - 30.000 frank (2-3 gün)

Şuntlama əməliyyatı - 50.000 frank (12 gün)

**Baza diaqnostika:**

Çek-up(ümumi profilaktik müayinə) - 3.100 frank

Çek-up kardio - 2.700 frank

Qadınlar üçün çek-up - 3.650 frank

**Urologiya:**

.1.Ümumi yoxlama - 2490 frank

2. Prostat əməliyyatı - 40.000-50.000 frank

3. Böyrəyin cərrahi yolla çıxarılması - 36.000 frank (10 gün)

4. Böyrək daşının götürülməsi - 8500 frank (2 gün)

Stomotologiya:

1.Ümumi yoxlama - 1 saat 700 frank

2. Dişlərin müalicəsi, plomblanması - 1 saat 700 frank

3. Dişlərin ağardılması - 1 saat 1400 frank

4.İmplant - 6500 frank

Valyuta kursunu xatırlatmaqla, qiymətlər barədə təsəvvür formalaşa bilər:

100 CHF (İsveçrə frankı) =105 dollar və ya 110 AZN-dir.

Ümumiyyətlə, İsveçrədə yaşayanların hamısı sığortalanmalıdır. Isveçrədə xəstəxana kassaları həm könüllü, həm də icbari sığorta növləri təqdim edir. Bu səbəbdən də əlavə tibbi xidmət əldə etmək üçün digər sığorta şirkəti axtarmağa ehtiyac yoxdur. Isveçrədə tibbi sığortanın daha bir fərqli cəhəti vətəndaşların xəstəxana kassasına öz seçimlərinə uyğun ödəniş etməsidir. Xəstəxana kassaları ən yaxşı tibb klinikaları ilə işləyir. Bu da yüksək xidmətə zəmanət verir.

Iveçrədə icbari tibbi sığortaya profilaktik tədbirlər - qripə qarşı peyvənd, ildə bir dəfə tibbi müayinə, xəstəliklərin diaqnostikası da daxildir. Digər Avropa ölkələrində olduğu kimi, Isveçrədə sığortalanan şəxs göstərilən tibbi xidmətin 10%-ni ödəyir.

❑ **Sevinc TELMANQIZI**

# Milli Məclisdə yenə rayon maşını qadağası söhbəti

**Rayon qeydiyyatında olan avtomobillərin Bakıya buraxılması ilə bağlı yeni qaydaların tətbiq edilməsi təklif edilir. Milli Məclisin oktyabrın 20-də keçirilən iclasında deputat Musa Quliyev bildirib ki, ola bilər ki, avtomobillərin Bakıya buraxılmaması kiminsə korporativ maraqlarına kömək edəcək: "Amma bizim rayon camaatının çoxu burada əziyyət çəkir. Belə çıxır ki, Azərbaycan vətəndaşı taksi ilə Bakıya gələ bilməz".**

M.Quliyev deyib ki, burada ortaq bir variant tapılmalıdır: "Rayondan Bakıya işləyən taksilərə ayrıca lisenziya verilməlidir. Rayondan gələn taksi sürücüləri artıq bunun həlli yolunu tapıb. Lisenziyanın haqqını yolda dayananlara ödəyib gəlirlər. Yaxşı olardı ki, bu vəsait dövlət büdcəsinə ödənilsin. Bəzi məmurlarımız və hətta millət vəkilləri var ki, onların avtomobilləri rayon qeydiyyatındadır və Bakıya gəlməkdə problem yaranır. Hesab edirəm ki, Nazirlər Kabinetinin bu qərarına yenidən baxılmalı və deyilən nöqsanlar aradan qaldırılmalıdır" ("Trend").

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015




# “Bu seçkidə özümə rəqib görmürəm”

## İlhamiyyə Rzanın seçki qərargahından reportaj; deputatlığa xanım namizəd seçkiöncəsi önəmli açıqlamalar verdi; iddiaçının özü və tərəfdarları 1 noyabr seçkilərində qalib gələcəklərinə inanırlar

**Parlament seçkilərinə sayılı günlər qaldı. Seçkiöncəsi sönüklük müşahidə olunsa da, elə namizədlər var ki, sözün həqiqi mənasında seçki qərargahları qaynayır. Belə iddiaçılarından biri 17 saylı Yasamal 3-cü seçki dairəsindən namizəd İlhamiyyə Rzadır.**

*Xanım iddiaçının seçki qərargahında olduq və gün ərzində ümumi seçki hazırlıqlarını müşahidə etdik. Seçki qərargahında yüksək əhval-ruhiyyə duyulurdu. İ.Rzanın çoxsaylı könüllülərdən ibarət tərəfdarlarının 1 noyabr seçkilərində qalib gələcəklərinə inamları tamdır. Əsasən gənclərdən ibarət olan həmin tərəfdarlarla söhbətimizdən sonra bu qənaətə gəldik.*

*Bütün günü seçicilərlə görüşlərdə olan İlhamiyyə xanımla qısa da olsa, seçkilərlə bağlı ümumi dəyərləndirmə aldıq.*

***- İlhamiyyə xanım, artıq seçkilərə 10 gün qaldığını demək olar. Hazırlıqlar necə gedir? Mühitdən razısınızmı?***

- Seçkiöncəsi mühitdən razı deyiləm. Əvvəlki seçkidən keçən 5 ildə bu mühit formalaşdırılmalı idi. Seçkiyə 1-2 ay qalmış hazırlıqlara başlamaq mümkün deyil. Namizədin hazırlığından söhbət gedirsə, buna ən azı 2-3 ay vaxt lazımdı. Amma ölkədə mühitin yaradılmasından söhbət gedirsə, bu 1 ilin də söhbəti deyil. Bir seçki bitdikdən sonra dərhal növbətisinə hazırlaşmaq lazımdır. Hər bir namizəd gördüyü işlərə, fəaliyyətinə gələcəyin namizədi gözü ilə baxmalıdır. Ümumiyyətlə, hazırda ölkədəki seçki mühiti qənaətbəxş deyil. Bizləri ən çox məyus edən də məhz budur. Yalan deyə bilmərəm, seçki kampaniyamda ciddi problemlər yoxdur. Xırda problemləri ciddiyə alan şəxs deyiləm. Həyat çətinliklərlə doludur. Sovet dövründə deyirdilər ki, həyat mübarizədən ibarətdir. O dövrün fikirlərindən imtina etsək də, bu həqiqətən belədir. Sən mübarizə edirsənsə, deməli, yaşayırsan. Əgər bu yoxdursa, deməli, acınacaqlı vəziyyətdəsən və sükunətdəsən. Bir qurumda təmsil olunduğum, mənimlə birlikdə namizəd olan şəxslərə baxıram, irili-xırdalı problemlər yaşayırlar. İşlərimə baxıb bəziləri bu fikrə gəlir ki, guya hakimiyyət artıq mənə dəstək verir. Cəmil Həsənlinin məlum siyahısına adım düşmüşdü. Bu barədə məndən fikir alan jurnalistə dedim ki, Cəmil müəllimdən soruşun, hansı meyarlarla adımı siyahıya salıb. İş olmayan yerdə çətinliklər çox olur. Hazırlıq kampaniyamı kifayət qədər peşəkarcasına aparırıq. Bəzi problemləri öncədən qabaqlayırıq. Hər kəsə bərabər imkanlar yaradılmalıdır. Dairəmizdəki namizədlərin vəsaitləri fərqlidir. Bəzisi çox xərcləyir, bəzisinin buna gücü çatmır. Hər cəhətdən dəstəyim var. Xüsusilə mediada. İndiyə qədər media və ictimaiyyətdəki təbliğatıma bir qəpik də xərcləməmişəm. Dostlarıma təşəkkür edirəm. İnanın ki, xahiş etməyim də lazım gəlmədi. Çox xoşbəxtəm ki, bunları qazanmışam. Bu resurslara daha çox güvənirəm. Birinci sırada seçicilərə güvənim olmalı idi. Təəssüf ki, seçki mühitinin olmaması buna imkan vermədi.

***- Seçicilərlə görüş necə keçir?***

- İnsanlar mənə inanır, amma bütövlükdə prosesə inanmırlar. İki adamdan biri "seçkilər artıq bitib, seçilən seçilib" fikirləri səsləndirir. Əsas fikirlərdən biri də, "bütün namizədlər belə danışır, amma beş il itirlər" cümlələridir. Hər şeyi seçki prosesinin üzərinə atmaq olmaz. Çünki problemləri saxtakarlıqdan tutmuş hər şeyə qədər bilirik. Amma mövcud deputatlar millət vəkilliyi statusunu o qədər gözdən salıblar ki, bərpa etmək olduqca çətindir. Onların haqq etdikləri tənqidləri biz eşitməli oluruq. Seçilərəmsə, hər şeyin əksini edəcəm. Necə deputat olmaq lazım deyil. Bunu mənə mövcud deputatların fəaliyyətsizliyi və insanlardan aldığım rəylər öyrətdi.

***- Cəmil Həsənlinin siyahısında adınızın keçməsi sizə avantaj, yoxsa dezavantaj idi?***

- Cəmil müəllimi siyasətçidən çox, alim kimi qiymətləndirirəm. Mənim üçün alimlik siyasətçidən daha yüksək mərtəbədədir. Cəmil müəllim gözəl bilir ki, onun tərəfdarları arasında mənə simpatiyası olanlar çoxdur. Onlar 20 ildən çoxdur ki, fəaliyyətimi izləyirlər. Əgər dəyər verirlərsə, sağ olsunlar. Cəmil müəllimin təmsil olunduğu düşərgə seçkini boykot edib. Onlar seçkiyə gəlməyəcəklər. Çalışırlar ki, tərəfdarları seçkidən çəkilsinlər. Hörmətli alimimiz gözəl bilir ki, elektoratı arasında mənə rəğbəti olanlar çoxdur. Bu məqsədlə mesaj verib ki, mənə səs verməsinlər. Bəlkə də bu Cəmil müəllimin mənə dəstək verməsi üçün yeganə məqam idi, amma o, dəstəyini vermədi. Buna çox təəssüflənirəm. Jurnalistik fəaliyyətimdə elm nümayəndələrinin daim yanında olmuşam. Heç vaxt populyarlıq, ucuz şöhrət arxasınca qaçmamışam. Verilişlərimə daim dəyərli insanları çağırmışam. Düşünürdüm ki, bu dəyərlərimə görə, Cəmil müəllim mənə dəstək verər. Bilmirəm ki, avantaj, yoxsa dezavantajdır. Bəlkə də Cəmil müəllimin bu addımı məni millət vəkili görmək istəyindən doğur. Amma elə reklamlara ehtiyacım yoxdur. İnsanlar yaxşı görür ki hardayam. Öz mövqeyimdəyəm. Yeraltı sular mənlik deyil.





***- 23 günlük təbliğat kampaniyanıza mane olurmu?***

- Bu, çox böyük maneədir. 3 ay təbliğata ayrılan vaxtlar olub. Bu müddət həddindən artıq azdır. Ödənişsiz efir də bəxtimdən olmadı (Gülür). 10 ildir efirlərdə deyiləm. Böyük zamandır. Televiziya elə bir şeydir ki, uzun müddət efirlərdə olmayanda, insanlar unutmağa meylli olurlar. 10 il bundan qabaq 15 yaşı olan gənc, indi seçicidir. O, məni xatırlamır. Şou yox, ağır, intellektual verilişlər aparmışam. Auditoriyam orta və yaşlı insanlar olub. Ödənişsiz efir mənim üçün böyük kömək olardı.

***- İlhamiyyə Rza millət vəkili seçilərsə, görəcəyi işləri planlaşdırıbmı?***

- Hansı istiqamətdə özümü görürəm, hansı istiqamətdə töhfələr verə bilərəm, platformamda qeyd etmişəm. Millət vəkili daim millətin yanında olan bir şəxs olmalıdır. İnsanlara söz verdim ki, məni seçsəniz, sizlər məni yox, mən sizləri axtaracam. Çox böyük bir məsuliyyətdir. Amma bu, millət vəkilinin borcudur. Seçkiöncəsi yol çəkdirənləri qınayıram. Seçiciləri şirnikləşdirmək üçün yalan vədlər vermək, yol çəkdirmək, özünü xeyriyyəçi kimi göstərmək olmaz. Deputat olan zaman bu işləri görmək lazımdır. Bu sözlər arxasında dura biləcəyim sözlərdir. Demirəm ki, deputat olsam, bütün problemləri həll edəcəm. Çünki parlamentdən problemləri işıqlandıra bilərəm. Amma azlıqda qala bilmək ehtimalım da var. Çoxluğun rəyi önəmlidir. Amma elə şeylər var ki, sırf əlimdə olan imkanlardır.

***- Millət vəkili olaraq, Milli Məclisin kürsüsündən qaldıracağınız ilk məsələ nə olacaq?***

- İlk növbədə, mənə dəstək verənlərə təşəkkür edəcəm. Düşünürdüm ki, ilk dəfə icbari tibbi sığorta məsələsini qaldıraram. Amma bildiyimə görə, bu, zaman məsələsidir, qərar da var. Sadəcə, prosesi sürətləndirmək üçün nələrsə etmək olar. Təhsil kreditləri məsələsini qaldırmaq istərdim. Dünyada bu təcrübədən istifadə edirlər. İki ailədən birinin övladı pullu təhsil alır. Burada heç bir pulsuz təhsildən söhbət gedə bilməz. 4 il müddətində valideyn faizsiz kredit götürməlidir. Başqa məsələlər də var.

***- Rəhbəri olduğunuz təşkilat "125-lər" Siyasi Klubu adlanır. Amma 125 namizəd görmədik.***

- 125 deyəndə parlament üzvləri nəzərdə tutulur. İdealda istərdik ki, bu sayda namizədimiz olsun. Amma belə bir öhdəliyimiz də yox idi. 10 nəfərlə də bunu edə bilərdik. Əsas hədəf namizəd olacaq insanları bir araya toplamaq idi. Müəyyən qədər buna nail olduq. Amma istədiyimiz şəkildə olmadı.

***- Hazırda demokratik düşərgə seçkiləri boykot edənlər və etməyənlər hissəsinə ayrılıb. İştirakçı kimi necə hesab edirsiniz, hansı tərəf üstün oldu?***

- Bu suala cavabı seçki günündən sonra verə bilərəm. Çünki uğurlu seçki kampaniyası aparanlar görmüşəm, hətta iqtidar daxilində belə, amma sonda qutudan başqa adamın adı çıxıb. İlk rəy sorğuları olmalı idi. Amma bizdə rəy sorğuları virtual şəkildə olur. Bunların nə dərəcədə doğru olduğunu bilmirəm. Məncə, obyektiv deyil. Nəticələrə görə hələ ki geridə qalmıram. Hətta öz dairəm üzrə birinciyəm. Əsas nəticə, düzgün hesablanarsa, qutudan çıxan səslərin sayıdır.

## “İnsanlar mənə güvənir, amma bütövlükdə prosesə inanmırlar”

***- Sorğu demişkən, yaxınlarda ABŞ şirkəti sorğu keçirdi və YAP namizədlərinin 74%-dən çox səs yığacağını açıqladı. Bu sizdə ruh düşkünlüyü yaratdımı?***

- Buna təəccüblənmədim. Parlamentdə çoxluq hakim partiyada olur. Amma özümə güvənirəm. Obyektiv seçki olarsa, qələbəmə inanıram. YAP namizədləri şəbəkə olaraq güclüdürlər. Çünki hər yerdə şəbəkələri var. YAP-dan olan rəqibim hər yerdə, şadlıq saraylarında görüşlər keçirir. Məndə bu imkan yoxdur. Sənətçi dostlarım mənə dəstək olurlar. Tədbirlərimə dəyərli sənət adamları qatılırlar. Dairəmdə olan insanlara səslənirəm ki, istədiyiniz vaxt mənə müraciət edin, görüş üçün. Məhəllələrə çağırın. Vaxt azdır, ərazi isə böyükdür. Üstəgəl, biz YAP deyilik. İmkanlarımız məhduddur. Əziz seçicilər, hər birinizin qapınıza gəlib, sizlərlə görüşməyə hazıram. Yetər ki, siz dəvət edin.

***- Qarşıda təşviqat dönəmi üçün qalan 10 gündə nə işlər görəcəksiniz?***

- Ancaq görüşlər keçirəcəm. Başqa bir görəcəyimiz iş də yoxdur. Mümkün qədər insanlarla daha çox ünsiyyətdə olmağa çalışacam. Mənim üçün insanlarla görüşlər asandır. 10 nəfərdən 8-i mənə səs verəcəyini deyir. Onların üzündəki ifadələrin dəyişdiyini görürəm. Seçilməsəm də, insanların məndən gözlədiyi bəzi işləri görəcəyimə əminəm.

***- Müxalif namizəd sayılırsınız. Seçkilərdə əsas rəqibiniz kimdir?***

- Bitərəf namizədəm. Ümid Partiyasının təşəbbüsü ilə irəli sürülmüşəm. Bitərəf namizəd kimi qeydə alınmışam. Özümü nə iqtidar, nə də müxalifət kimi sayıram. Həyatda özümü tənqidi fikirlərim olan insan kimi görürəm. Bunun özü də müxalifətçilikdir. Kimi rəqib görməyə gəlincə, suala cavab vermək istəmirəm. Çünki cavabım onlar üçün reklam olar. Onları reklam etmək istəmirəm.

***- Demək, özünüzə rəqib görmürsünüz?***

- Böyük mənada belə düşünmək olar.

***- Sonda seçicilərə müraciətiniz varmı?***

- Seçicilərə səslənirəm ki, yazının sonunda əlaqə ünvanları olacaq. Müraciətlərinizi edin. Namizəd olduğum ərazi çox problemlidir. "Sovetski" bu dairənin ərazisində yerləşir. Evlərinin sökülməsi ilə bağlı əhalinin ciddi problemləri var. Alınsa, təbliğatın sonuncu günü tədbir keçirəcəm. Seçki prosesi mənə yeni-yeni dostlar qazandırdı, dostlarıma yenidən baxmaq imkanı verdi. Özümə bir qədər kənardan baxdım, güvənim artdı.

**17 saylı Yasamal 3-cü seçki dairəsinin seçiciləri, İlhamiyyə Rza ilə əlaqə saxlamaq üçün ünvanları təqdim edirik:**

**Seçki qərargahı İnşaatçılar prospekti 33, mənzil 47-də yerləşir. Əlaqə telefonu 070 555 21 10-dur.**



❑ **Cavanşir ABBASLI**



# Avropa yenidən Türkiyəyə tərəf dönür?

**Hüseynbala SƏLİMOV**

**Almaniyanın kansleri A.Merkelin Türkiyəyə səfəri təkcə onun tıxaca düşməsi ilə yadda qalmadı, kansleri elə Türkiyəyə səfər etməyə vadar edən əsas səbəb də az maraq kəsb etmirdi: Avropa ərəb ölkələrindən olan qaçqınların qarşısını elə Türkiyədə kəsmək istəyir...**

Yəqin ki, bunun maliyyə-iqtisadi tərəfləri də olacaq - avropalılar üçün ərəb ölkələrindən gələn qaçqın selindən qurtulmaq üçün bir neçə milyard dollardan keçmək elə bir problem deyil və yada salsaq ki, Avropa böhran keçirən Yunanıstana nə az, nə də çox, düz 86 milyard dollar ayırdı, Qoca Dünyanın maliyyə imkanları haqqında dürüst təsəvvür əldə etmiş olarıq...

Bəs Türkiyənin buna cavabı necə olacaq? Hələlik bu haqda birmənalı söz demək elə də asan deyil, amma böyük ehtimalla razılaşacaqlar, çünki minnətçi düşən təkcə Almaniya deyil, bütün Avropa Birliyi israrla xahiş edir...

Amma biz istəməzdik ki, Türkiyə bununla razılaşsın. Bu, təkcə Avropanın bu ölkəyə münasibətdə yürütdüyü ikiüzlü siyasətlə bağlı deyil - çətin vaxtlarda hər an Türkiyəni yada salan Avropa açıq qərəz ucbatından bu ölkəni öz sıralarına qəbul etmədi...

Amma Türkiyədə bunun kinini saxlamırlar. Elə biz də kinli deyilik. Bizi daha çox Türkiyəyə pənah gətirmiş insanların etnik, dini və siyasi tərkibi maraqlandırır. Qaçqınlar despotik ərəb ölkələrindəndir. Bu isə o deməkdir ki, onların kifayət qədər demokratik vərdişləri, dünyəvi və demokratik ölkədə yaşamaq təcrübəsi yoxdur. Həm də bu insanların çoxu radikal dini təriqətlərin təsirinə məruz qalmış olurlar. Heç kim təminat verə bilməz ki, bu adamlar Türkiyənin kriminal durumuna öz töhfələrini verməyəcəklər. Avropaya həmin bu insanları öz içində "əritmək" elə də problem deyil - on milyonlarla insanın içində bir neçə yüz min adam nə edə bilər ki?!

Amma Türkiyənin öz problemləri az deyil. Burada PKK-çılardan tutmuş dini radikallara qədər hər cür adam var...

Elə bu səbəbdən istməzdik ki, Türkiyə qaçqınların "sonuncu sığınacağı" missiyasını öz üzərinə götürmüş olsun. Burada həm də diqqəti cəlb edən əsas səbəb nədir?

Çəkinmədən deyərdik ki, Avropa siyasətinin qeyri-səmimiliyi! Bircə anlığa qardaş Türkiyəni unudaq, öz Azərbaycanımızı yada salaq. Neçə illərdir ki, biz bir milyona yaxın qaçqının və məcburi köçkünün problemlərini həll etməyə çalışırıq. Avropa isə bu müddət ərzində bizimlə "əylənmək"lə məşğul olub, hər dəfə əzbərlədikləri iki-üç cümləni bizim az qala sifətimizə çırpmaqla belə zənn ediblər ki, vəzifələrini yerinə yetiriblər...

Bunları yazmaqla təbii ki, Avropanı gözdən salmaq niyyətində deyilik, amma inciklik yardan məqamları da arabir söyləmək lazımdır...

Bəli, avropalılar öz rahat həyatları ilə risk etmək istəmirlər. Amma insanlar hər yerdə rahatlıq istəyir və tələb edirlər. O cümlədən də qardaş Türkiyədə. Bu da aydındır ki, avropalıları qaçqınların yarada biləcəyi problemlərin maddi tərəfləri az maraqlandırır, onlar öz cəmiyyətlərinin sosial palitrasının dəyişə bilməsindən, ölkədə müsəlmanların arta bilməsindən ehtiyat edirlər...

Amma bir daha qeyd edirik ki, eyni problemlər Türkiyəni də təhdid edir. Təbii ki, qaçqınların müsəlman olması Türkiyə üçün problem deyil, əksinə həmin bu adamların türk cəmiyyətinə inteqrasiyasını asanlaşdıra bilən amildir. Di gəl ki, bir az əvvəldə bir problemi qeyd etdik: ərəb ölkələrinin insanlarında dünyəvi, sekulyar cəmiyyətlərdə yaşamaq vərdişləri zəifdir, onların yaşadığı ölkələr həmişə ciddi dini qarşıdurmalarla seçilib. Onlar bu "təcrübə"ni Türkiyəyə də transfer edə bilərlər. Bizi də ilk növbədə qorxudan da elə məhz budur və güman edirik ki, bizim narahatlığımızı Türkiyə cəmiyyətinin üzvləri də bölüşərlər...

Qərəz, növbəti dəfə Avropa eqoizminin təzahürlərilə rastlaşdıq. Toxlar özlərinin tox həyatları üçün narahatdırlar. Amma digər ölkələrdə, elə Türkiyədə yaşayan insanların eyni narahatlığı keçirməyə haqqı yoxdurmu? Bir qədər əvvəldə Avropa Birliyinin illərlə Türkiyəni kandarda saxlamasını da qeyd etdik. Bir daha buna qayıtmaq istərdik. Nədən Türkiyə AB-nin üzvü ola bilmədi? Doğrudanmı bu ölkənin iqtisadi durumu Birliyə qəbul edilmiş şərqi Avropa ölkələrindəkindən zəif idi?

Qətiyyən belə düşünmürük. Ümumilikdə götürəndə AB ilə işləmək Türkiyə üçün faydalı oldu. Amma Türkiyə AB-yə üzv ola bilmədi. Səbəb isə Avropa adlı bir məkanın eqoizmi idi, bəli, sadəcə, eqoizmi...

# Müsavat AXCP kimi Əli Kərimlini tanıdı

## Razi Nurullayevdən cavab gəldi: "Kərimlinin və onun başçılıq etdiyi qanadın bir nömrəli məqsədi Müsavat Partiyasını sıradan çıxarmaqdır"

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirib ki, AXCP adında bir təşkilat tanıyır və bu, Əli Kərimlinin AXCP-sidir. Razi Nurullayevin yaratdığı isə tamamilə başqa təşkilatdır.**

**Arif Hacılı** bu barədə facebook sosial şəbəkəsində status yazıb və qeyd edib ki, hətta Ədliyyə Nazirliyinin belə qəbul edəcəyi hər hansı qərar Müsavat Partiyasının mövqeyinə təsir etməyəcək: "Müsavat Partiyası AXCP adında yalnız bir təşkilat tanıyır. Bu təşkilat öz qurultayını sentyabr ayının 27- də keçirərək növbəti dövr üçün rəhbərliyini seçib. Razi Nurullayevin yaratdığı təşkilat isə başqa təşkilatdır. Ədliyyə Nazirliyinin bu məsələ ilə bağlı qəbul edəcəyi hər hansı qərar Müsavat Partiyasının mövqeyinə təsir etməyəcək".

Xatırladaq ki, AXCP sədri Əli Kərimlinin sabiq müavini Razi Nurullayev əsl AXCP-nin onun rəhbərliyi ilə yarandığını bəyan edib və partiya üzvlərini öz ətrafında birləşməyə çağırıb. O, oktyabrın 18-də bu təşkilatın qurultayını keçirib və sədr seçilib.

Onu da qeyd edək ki, 2000-ci ildə Əbülfəz Elçibəyin vəfatından sonra AXCP iki tərəfə bölünəndə Müsavat Partiyası əsl AXCP kimi Əli Kərimlinin rəhbərlik etdiyi qanadı deyil, Mirmahmud Mirəlioğlunun rəhbərlik elədiyi tərəfi tanımışdı. Bu addım sonrakı dövrlərdə Əli Kərimli və rəhbərlik etdiyi partiya ilə Müsavat arasında gərginliklərə səbəb olmuşdu. Ədliyyə Nazirliyi isə o dövrdə AXCP kimi Əli Kərimlinin rəhbərlik etdiyi tərəfi rəsmən tanımışdı. Bir çox siyasi təhlilçilərin fikrincə, Əli Kərimli və ətrafının Müsavata qarşı daim kinli olması, Müsavatı hədəfə alması həm də 2000-ci ildə Müsavatın etdiyi seçimlə bağlıdır.



Razi Nurullayev

Belə bir təcrübə ortada varkən, Müsavat yenə də Ədliyyə Nazirliyinin mövqeyi bəlli olmadan seçimini elan etdi. Bəs Ədliyyə Nazirliyi AXCP olaraq Razi Nurullayev tərəfini tanıyarsa, bu, Müsavat üçün problem yarada bilərmi?

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, Müsavat həmişə düz bildiyi yolla gedib. İndi bu mövqedədir ki, düz addım atıb:** "2005-ci ildə biz AXCP ilə "Azadlıq" blokunda olmuşuq. 2010-cu ildə AXCP ilə "AXCP-Müsavat" blokunda seçkidə iştirak edib. Keçmişi keçmişdə qoyaq. İndi isə fakt ondan ibarətdir ki, AXCP-yə paralel yaradılan bir təşkilat Müsavata paralel yaradılan bir təşkilatla eyni funksiyanı daşıyır. Ona görə də biz həmişə haqqın yanında olmağı əsas götürmüşük. Ədliyyə Nazirliyinin hansı qərar qəbul eləməsi isə nazirliyin öz işidir. Biz hesab edirik ki, AXCP olaraq tanınan təşkilat məhz 27 sentyabrda qurultayını keçirmiş təşkilatdır".

**Müsavatın bu addımından sonra Əli Kərimli AXCP-sinin Müsavatla münasibətinin müsbətə dəyişəcəyinin gözlənilib-gözlənilmədiyinə gəlincə, G.Aslanlı qeyd etdi ki, Müsavat addımlar atanda gələcəyi nəzərə alır:** "Müsavatın bu addımı müsbət dəyərləndiriləcəksə, çox yaxşı. Dəyərləndirilməyəcəksə, yenə də biz öz doğru bildiyimiz yolda davam edəcəyik".

Onu da bildirək ki, Müsavat başqanının Əli Kərimli üçün mühüm olan yuxarıdakı açıqlamasını AXCP-yə bağlı olan media orqanının saytında gün ərzində yerləşdirməyiblər. Bu faktın özü onların Müsavata qarşı münasibətinin dəyişməz qaldığı sayıla bilər.

Sentyabrın 27-də keçirilən qurultayla bağlı AXCP adından göndərilən müvafiq məlumatların dövlət reyestrinə daxil edilməsi ilə bağlı müraciət isə Ədliyyə Nazirliyində araşdırılır.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, sözügedən müraciətə baxılır və yaxın vaxtlarda cavab veriləcək.

Nazirlikdən bildirilib ki, Razi Nurullayevin AXCP adına keçirdiyi qurultayla bağlı müraciət Ədliyyə Nazirliyinə daxil olmayıb.

**Razi Nurullayev isə ölkə.az-a açıqlamasında Müsavat başqanı Arif Hacılıdan bu cür münasibət gözləmədiyini bildirib:** "Arif Hacılının bu cür açıqlamasına münasibətim çox mənfidir. Azərbaycan müxalifətində mənim qədər cəsarət tapıb, Əli Kərimlini Azərbaycan xalqının yaxasından düşürmək istəyən adamlar çox azdır. Eyni zamanda atdığım addımla Arif Hacılının özünü də xilas etmiş oldum. Əli Kərimlinin qarşısı alınmasa idi, o, yalançı qəhrəmanlıqla digər siyasi qurumları sıradan çıxaracaqdı. Əli Kərimli hazırda Müsavat Partiyasını sıradan çıxarmış kimi görünür. Heç bir zaman Müsavat Partiyası ilə qarşıdurmaya getmək istəmirəm. Müsavat və digər müxalifət partiyaları bilməlidir ki, Azərbaycan müxalifətinin bir problemi var, o da Əli Kərimlidir. Biz bu problemi aradan qaldırmaq üçün çalışdıq. Arif Hacılının ətrafında olan insanlar mənə deyib ki, siz eyni zamanda Arif Hacılını da xilas etmiş oldunuz. Əli Kərimlinin və onun başçılıq etdiyi qanadın bir nömrəli məqsədi Müsavat Partiyasını sıradan çıxarmaqdır. Biz bunun da qarşısını aldıq, ona görə də əslində Arif Hacılı bizə minnətdar olmalı idi".

**Etibar SEYİDAĞA**

# Müsavatın 25 oktyabr mitinqinə icazə verildi

## Rayon təşkilatlarının sədrləri mitinq hazırlığı üçün qərargaha toplandı

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Müsavat Partiyasının 25 oktyabrda mitinq keçirmək üçün müraciətini dünən müsbət cavablandırıb. BŞİH-in cavab məktubunda bildirilib ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına riayət olunmaqla, 25 oktyabr 2015-ci il tarixdə saat 15:00-dan 17:00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) mitinqin keçirilməsinə razılıq verilir.**

Mitinqin təşkilatçılarından xahiş olunub ki, Azərbaycan Respublikası "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanununa əsasən ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən və təhqiredici şüarlardan istifadə olunmamasına ciddi nəzarət edilsin.




Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı "Yeni Müsavat"a bildirib ki, Bakı Şəhəri İcra Hakimiyyətinin razılıq sənədi artıq partiyaya təqdim olunub. Mitinqə hazırlıq işləri isə davam edir. G.Aslanlının sözlərinə görə, dünən partiyada Sədrlər Şurasının genişləndirilmiş iclası keçirilib. Genişləndirilmiş iclas məhz mitinqə hazırlıq məsələsinə həsr olunub. Bundan sonrakı günlərdə görüləcək işlər barədə tapşırıqlar verilib.

**Mitinqdə Müsavatın 25 deputatlığa namizədlərinin hamısının iştirak edib-etməyəcəyinə gəlincə, G.Aslanlı dedi ki, bunu dəqiq söyləmək çətindir. Çünki mitinq istirahət günüdür və namizədlər öz dairələrində seçicilər ilə görüşlər keçirir:** "Kimin həmin günə seçicilərlə görüşü təyin olunmayıbsa, təbii ki, onlar mitinqdə iştirak eləyə bilərlər. Amma xüsusi olaraq namizədlərin qarşısında tələb qoyulmayıb ki, dairələrdə olan görüşlərini təxirə salsınlar. Ola bilsin ki, bu məsələ bugünlərdə müzakirə edilsin və ümumi qərara gəlinsin".

**"Maraqlı məqamlarda biri mitinq keçiriləcək ünvanın İsa Qəmbərin deputatlığa namizəd olduğu seçki dairəsinin ərazisi olmasıdır. Bu baxımdan 25 oktyabr mitinqi həm də İsa Qəmbərin dairə ərazisində seçiciləri ilə görüşü kimi ola bilərmi" sualına G.Aslanlı belə cavab verdi:** "İsa Qəmbər bir seçki dairəsinə sığmayan siyasətçilərdəndir. Onun Azərbaycan seçicilərinin hamısı ilə ünsiyyəti ola bilər. Amma dediyinizdə bir həqiqət də var. Bakı Şəhər İcra Hakimiyyəti həmin ünvanı 15 saylı Yasamal seçki dairəsində seçicilərlə namizədlərin görüşü üçün rəsmən ayırıb. Odur ki, sizin dediyiniz məsələ də gündəmdə var. Təbii ki, mitinqdə əsas mövzu qarşıdan gələn seçkilər olacaq. Namizədlərimizin daha çox təbliği, onların seçicilərlə təması baxımından partiyamız bu şansdan istifadə edəcək".

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015

# "...Sizdən başqa heç nə istəmirik"

## Əli Həsənov: "Seçki reallığını təhrif etməyi qarşısına məqsəd qoyanlara müqavimət göstərin"

**"İnanıram ki, gənclər təşkilatları yeni seçkiyə qatılacaq gənclər, ümumiyyətlə, gənclərin seçkilərdə iştirakı ilə bağlı iş aparacaqlar. Prezident İlham Əliyev də deyib ki, bizə məsuliyyətli gənclik lazımdır".**



APA-nın məlumatına görə, bunu oktyabrın 20-də Prezident Administrasiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu və Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə parlament seçkilərində gənclərin iştirakı ilə bağlı gənclər təşkilatları ilə keçirilən görüşdə Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov söyləyib.

**Ə.Həsənov** deyib ki, I Avropa Oyunlarında gənclər üzərlərinə böyük məsuliyyət və yük götürüb. Avropa Oyunlarında formalaşan könüllülər avanqard kimi digər gəncləri arxasınca aparmağa qadirdir: "Biz çağırış edirik ki, bütün Azərbaycan gəncliyi seçkilərdə yaxından iştirak etsin. Bu gün sosial şəbəkələrdə, daxili və beynəlxalq mətbuatda Azərbaycandakı seçkilərlə bağlı müzakirələr gedir. O cümlədən seçkidən sonra seçkinin, "exit-poll"ların nəticələri ilə bağlı müzakirələr gedəcək. Azərbaycanda seçki reallığını təhrif etməyi qarşısına məqsəd qoymuş yerli və xarici qurumlara və şəxslərə müqavimət göstərin. Sadəcə, gördüklərinizi təbliğ edin, sizdən başqa heç nə istəmirik. Namizədlərlə görüşlərdə fəal olub, problemlərinizi nəzərə çatdırın ki, gənclərlə bağlı iş deputat seçildikdən sonra fəaliyyətlərində əsas istiqamətlərdən biri olsun. Arzu edirəm ki, hər biriniz vətəndaş məsuliyyəti dərk edərək seçkilərdə fəal iştirak edəsiniz".

**Ə.Həsənov qeyd edib ki, prezident İlham Əliyev Azərbaycanın milli maraqlarının, suverenliyinin qorunması üçün qətiyyətli mövqe nümayiş etdirir:** "Bizim vəzifəmiz odur ki, Azərbaycan dövlətini qoruyaq. Hər bir dövlət vətəndaşlarının maraqlarını təmsil edir və beynəlxalq münasibətlərdə də bu marağa söykənərək siyasət yürüdür. Siz gənclər də Azərbaycan dövlətinin qorunmasında, seçkilərdə iştirakda fəal olmalısınız".

# Ziya Məmmədovun "müalicəsi" bitdi, əfv də olundumu?

## Məlumata görə, səlahiyyətləri əlindən alınmış naziri məzuniyyətdən sonra iqtidarla heç də rahat olmayan söhbət gözləyir; onun Eldar Mahmudovla nə birləşdirir?

**Səlahiyyətlərinin əhəmiyyətli hissəsi prezident sərəncamı ilə əlindən alınmış nəqliyyat naziri Ziya Məmmədov oktyabrın 19-da gözlənilmədən işə çıxıb. Ölkə gündəmi işdən çıxarılan başqa bir sabiq nazirin taleyinə köklәndiyindən nazirin 4 gün tez məzuniyyətini başa vurması o qədər də diqqəti cəlb etməyib. Nəqliyyat Nazirliyindən verilən məlumata görə, Ziya Məmmədovun sədrliyi ilə iclas olub. "Nazirin iş qrafiki də artıq bəllidir və o, növbəti həftədən başlayaraq bölgələrdə vətəndaşlarla görüş keçirəcək" deyə, nazirlik rəsmisi bildirib.**



Rəsmi məlumata görə, Ziya Məmmədov sentyabrın 16-dan oktyabr ayının 22-nə qədər növbəti əmək məzuniyyətinə çıxmışdı. Onun harada olduğu barədə ziddiyyətli məlumatlar vardı. Onun qohumları deyirdilər ki, nazir xaricdə müalicə olunur. Nazirliyin mətbuat xidmətinin rəhbəri də "Yeni Müsavat"a təsdiqləyib ki, Z. Məmmədov İsveçrədə müalicədə olub.

Xatırladaq ki, məzuniyyətdə olduğu müddətdə Nəqliyyat Nazirliyinin əhəmiyyətli səlahiyyətləri bölüşdürülüb və DİN-ə verilib. Nəqliyyat Nazirliyinin tərkibində Bakı Sərnişin və Yük Daşımalarının Təşkili şöbəsinin fəaliyyəti dayandırılıb.

Yəni Z.Məmmədov faktiki olaraq məzuniyyətdən "portfelsiz nazir" statusunda qayıdıb. Nazirin məzuniyyətdə olduğu günlərdə "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeçiliyindən çıxarılıb, Nəqliyyat Müfəttişliyinin səlahiyyətləri DYP-yə verilib. Bundan əvvəl isə Məmmədovlar şəhər nəqliyyatından vurulub çıxarılıblar, taksilərə lisenziya verilməsi də "ASAN xidmət"ə həvalə edilib, "Azəryolservis" nazirin nüfuz dairəsindən çıxarılıb və hökumətdə müstəqil quruma çevrilməsi müzakirə olunur. Məlumatlara görə, Prezident Administrasiyasında Nəqliyyat Nazirliyinin yeni əsasnaməsi hazırlanır. Layihədə nazirliyin yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanması ilə məhdudlaşdırılması nəzərdə tutulur. Yeni Nəqliyyat Nazirliyi Energetika Nazirliyi kimi, təsərrüfat fəaliyyəti ilə məşğul olmayan struktura çevriləcək.

33 günlük "dincəlmədən" sonra Ziya Məmmədovu iqtidarla heç də rahat olmayan söhbət gözləyir. Nazirin niyə qəzəbə gəlməsi barədə indiyədək çox yazılıb, ən müxtəlif versiyalar irəli sürülüb. Nazirin hakimiyyətin "qara siyahısında" olan Abbas Abbasovla dostluğundan tutmuş, Rusiya prezidenti Vladimir Putinə "yol axtarmağa" qədər versiyalar ortaya atılıb. Hətta onun Amerika prezidentliyinə namizədliyi irəli sürülən Donald Trambla hansısa gizli sövdələşmələrinədək versiyalar səslənib. Nazirlikdə uzun illər bir neçə gəlirli sahəyə nəzarət etmiş nazirin və yaxın ətrafının "maliyyə xəyanəti"ndə suçlanması haqda daha çox iddialar var. Bu səbəbdən nəqliyyat nazirinin izahatından sonra onun sonrakı taleyi barədə qəti danışmaq mümkün olacaq. Milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılması və MTN-də həbslərin başlaması onu göstərir ki, nəqliyyat nazirinin "toxunulmaz" qalması mümkün deyil. İddialar var ki, Z.Məmmədov da sabiq təhlükəsizlik nazirinin yaratdığı "böyük başlar klanı"na daxil imiş. Xatırladaq ki, E.Mahmudovun belə bir klan yaratması barədə hakimiyyətdaxili qruplaşmalar haqda bilgisi olduğu şübhə doğurmayan sabiq səfir Arif Məmmədov məlumat verib. O, klanın Prezident Administrasiyası ilə hesablaşmadığını deyib. Məlumdur ki, Z.Məmmədov da Prezident Administrasiyası ilə uzun müddətdir ki, konfliktdədir. Rəsmi və hakimiyyətyönlü qəzetlərdə vaxtaşırı nəqliyyat nazirinin tənqid edilməsi də bu faktı təsdiq edir.

Səlahiyyətlərinin əhəmiyyətli hissəsini itirən nazir müalicəsini yarımçıq qoyub ölkəyə qayıtsa da, onun oğlu-Məmmədovların ailə biznesinə rəhbərlik edən Anar Məmmədovun harada olması haqda hələ də dəqiq bilgi yoxdur.

İstənilən halda Z.Məmmədovun işə qayıtmasının onun əfv olunması kimi izahı reallığı əks etdirmir. Onun da yaxın günlərdə ən yaxşı halda "öz ərizəsi" ilə işdən getməsi daha çox gözləniləndi.

❑ **"Yeni Müsavat"**






# Eldar Mahmudovun oğlunun biznesi üzə çıxdı

## Anar Mahmudovun "Caspian Crystal" şirkəti "Beluga", "Salvador Dali", "Lord", "VİP", "Velluto" və "Crystal Shikhovo" kimi dəbdəbəli restoranlar şəbəkəsi yaradıb

**Azərbaycanda holdinqlərin, iri şirkətlərin məmurlara yaxın olması heç kimə sirr deyil. 2006-cı ildən fəaliyyət göstərən "Caspian Crystal" şirkətlər qrupunun keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudova bağlı olduğu iş dünyasına yaxşı məlumdur.**



"Caspian Crystal" holdinqin İdarə Heyətinin sədri Anar Eldar oğlu Mahmudovdur.




"Marja"nın araşdırması nəticəsində məlum olub ki, "Caspian Crystal" bir neçə istiqamətdə ixtisaslaşıb - katerinq, qida, restoranlar və avtomobil satışı.

"Caspian Crystal" şirkəti Azərbaycanda dünyanın hər bir yerindən gətirilmiş eksklüziv şərablar və alkoqollu içkilər təklif edən ilk butikin - "Wine City"nin yaradıcısıdır. Hazırda Bakıda bu adla 2 butik fəaliyyət göstərir. "Wine City" mağazasında 18000 şüşənin saxlanıldığı şərab anbarı yaradılıb.

Şərab butikinin layihəsi və dizaynı fransızlarla birgə hazırlanıb. Bu şərablar elit müəssisələrə təqdim edilir və VİP müştərilər üçün nəzərdə tutulub.

"Caspian Crystal" şirkəti 2008-ci ildən etibarən lüks qədəhlər istehsalçısı "Riedel Crystal" şirkətinin Azərbaycanda rəsmi distribütorudur.

"Caspian Crystal" şirkətinin fəaliyyətinin bir istiqaməti Avropanın ən yaxşı istehsalçılarından eksklüziv qida məhsullarının idxalıdır. 2007-ci ildə şirkət öz ərzaq bazasını yaradıb və "Gastronomy" pərakəndə və topdansatış üzrə ilk mağazasını açıb. Hazırda "Gastronomy-1", "Gastronomy-2" və "Gastronomy-3" mağazaları fəaliyyət göstərir.

Öz fəaliyyətinə restoran biznesi ilə başlayan "Caspian Crystal" şirkəti "Beluga", "Salvador Dali", "Lord", "VİP", "Velluto" və "Crystal Shikhovo" kimi dəbdəbəli restoranlar şəbəkəsi yaradıb.

"Caspian Crystal" şirkəti müəssisə və təşkilatların əməkdaşlarının qida ilə təmin olunmasının təşkili üzrə podrat xidmətlərinin göstərilməsi üzrə də ixtisaslaşıb. Şirkət quruda olduğu kimi, neft platformaları və açıq dənizdəki gəmilərdə də qida xidməti göstərir.

Azərbaycanda "Range Rover", "Yaguar", "Maseratti" avtomobillərinin və "Dicati" motosikletlərinin rəsmi distribütoru olan "Crystal Motors" şirkəti də "Caspian Crystal" holdinqə bağlıdır.

"Caspian Crystal"ın baş ofisi Bakıda Yusif Səfərov küçəsində "Caspian Crystal" plazada yerləşir.



# Nöqtənin qoyulması

Zamin HACI
zaminhaci@gmail.com

**Ağlım kəsəndən "Sahibkarlığa mane olanlar, qanunsuz yoxlamalar yığışdırılacaq" söhbətləri eşidirəm. Yapistlər hər iki-üç ildən bir bu köhnə qrammofon valını qoyurlar, cırıltılı səslərə qulaq asmalı oluruq. Belə deyə-deyə ölkədə qoymadılar azad sahibkar da qalsın. Hamısını, bütün sahələri qamarlayıb öz altlarına yığdılar, oldular baş sahibkar. Analoqu olmayan idarəçi-biznesmenlərə çevrildilər.**

İndi MTN şefinin vurulması da bu bəsit mahnı ilə müşayiət edilir. Deyirlər Eldar müəllimin rəhbərliyi altında çekistlər iş adamlarını boğaza yığıbmış. Kimi? Əsas sual budur. Çünki Eldar müəllimin özü və bütün ətrafı elə iş adamları idilər. Milli təhlükəsiz şəkildə dükan qurub maşından çaxıra qədər hər şey satırdılar. Asudə vaxtlarında torpaq da satırdılar. İndi də satırlar. Ticarətdə belə hallar olur. Görürsən rəqiblər bir-birini sıradan çıxarırlar. "Ayfon" istəyir "Samsunq"un bazarına girsin. "Volksvagen" "Toyota"nı sıxışdırır. Məktəbin qabağında göyərti satan Güllübəyim xala məktəbin tinində eyni bizneslə məşğul olan Çillibəyim nənənin təpəsinə qəfil bir daş düşməsini uca Merkuridən arzu edir. Merkuri qədim romalılarda ticarət allahı idi, ağlınıza başqa şey gəlməsin, birdən elə zənn edərsiniz Eldar müəllimin təzə şirkətini tapmışam. Bu dəqiqə Eldar müəllimin dükanlarını tapmaq milli təhlükəsiz peşə fəaliyyətidir, hamı girişib.

Qəzetdə yazıblar ki, dövlət başçısı inqilabi qərar verib, sahibkarlığın yoxlanılmasını 2 il qadağan edən qanunu deputatxanaya göndəribdir. 2 il müddətində sahibkarları ancaq vergi və hüquq-mühafizə orqanları yoxlaya biləcəkmiş. Daha iş adamlarının incidilməsinə nöqtə qoyulacaqmış.

Mən başa düşmədim, niyə 2 il? Bu müddət hardan götürülüb? Ondan sonra mədəniyyət, kənd təsərrüfatı, xarici işlər, ədliyyə, təhsil nazirlikləri təzədən sahibkarlığı yoxlaya biləcəkdirmi? Çünki ayrı bir idarə qalmadı ağıla gələn. Bəyəm indi mifik sahibkarları *(oxu: göyərti satan nənələri)* incidən elə vergi və hüquq-mühafizə orqanları deyildi?

Prinsipcə, vergi yoxlamalarını, o cümlədən hüquq-mühafizənin zəruri anda yoxlamasını qadağan edə bilməzsən. Dövlət sistem olaraq anarxiyaya çevrilər. Çünki dövlət büdcəsini vergilər toplayır, hər hansı iqtisadi və ya başqa cinayət halında isə polis, prokurorluq mütləq sahibkarı yoxlamalıdır. Bunlar da gördüyümüz kimi, 2 il ərzində də yerində qalacaq. Bəs o zaman bu qərarın anlamı nədir?

Yeri gəlmişkən, bir ara "Bandotdel" dağıdılmış neft pullarını, yeyilmiş kreditləri qusdurmaq üçün o qədər bankir tutub-buraxırdı ki, uca millətimiz idarəyə yarızarafat "Bankotdel" adı vermişdi. İndi necə olacaq? Hacı İbrahim Çinə gedə biləcəkmi? Əlbəttə, yox. Çünki bu nömrəni bizə gələnlərə nömrə gəlib aradan cırmaq çox çətindir. Heç çekistlər öz bizneslərinin başında dolaşan qara buludları görmədilər, başqaları nə edə bilər?

"Qanun şah olmayıb, şah qanun olursa" durum belədir. Qaçılmaz prosesdir. Örnək üçün, 20 ildir korrupsiya ilə mübarizə qanunu qayırıblar. Guya vəzifəli şəxslər gəlir deklarasiyası verməlidir. Guya verirlər də. Sadəcə, bizim həmin karikatur qanuna görə gəlir deklarasiyası haqda sənədlər dövlət sirridir! Məlumatlar antikorrupsiya komissiyasının sədrinə *(Ramiz Mehdiyevə)* toplanır, ancaq o bilir hansı nazirin nəyi var. Təsəvvür edirsinizmi, belə gülməli qanun düzəldiblər!? Bir az da açıqlasam, şəffaflıq haqda sənədlər dövlət sirridir. Elə bil evə pəncərə düzəldirsən, ancaq şüşə yerinə kərpic hörürsən. Kimin xoşu gəlməsə baxmasın. İstəsək o kərpicin bir dənəsini qoyarıq təpəsinin ortasından! Di get, dombalaq aş. Korrupsiyadan çox yazanın biri də jurnalist Xədicə İsmayıl idi, indi hardadır? Ay sağ ol, türmədə. İstəsən sən də qonşu kameraya get, divarı tıqqıldadıb sahibkarlığa dövlət qayğısının yeni təzahürləri haqda danışın. Morze əlifbası ilə. Bir nöqtə. Nöqtə, tire, nöqtə, nöqtə. Tire, nöqtə, nöqtə. Nöqtə, tire. Nöqtə, tire, nöqtə.

Bax, mən indicə Eldar müəllimin adını yazdım.




# İŞİD Azərbaycanın dəniz sərhədlərində - qorxunc gəlişmə

## Terror qruplaşmasının Türkmənistana girməsi xəbəri yayılıb, sərhəddə qanlı döyüşlər gedir; milli təhlükəsizlik nazirinin vəzifədən götürülməsinin daha bir səbəbi üzə çıxır...

**Azərbaycanın da daxil olduğu bölgə ətrafında proseslər durulmaq əvəzinə qəlizləşməkdə davam edir. Böyük güclərin başının Suriyaya, Yaxın Şərqə, İŞİD məsələsinə qarışdığı vaxtda İŞİD də öz təsirini daha geniş ərazilərə yaymaq üçün taktikasına təcili düzəlişlər eləməkdədir.**

Hədəfdə isə artıq həm də terror qruplaşmasının güclü olduğu Əfqanıstanla sərhəd müsəlman postsovet ölkələridir. Bu yöndə ilk ciddi cəhd, "sınaq yoxlanışı" ötən ay artıq baş verib. Tacikistanda müdafiə nazirinin müavini Abdulhalim Nazarzodanın başçılıq elədiyi qiyam əslində bunun xəbərçisi idi.

Sözsüz ki, qiyamın yatırılması və Nazarzodanın dəstəsinin zərərsizləşdirilməsi müstəsna olaraq Rusiyanın hesabına oldu *(Putin özü həmin kritik günlərdə şəxsən Düşənbəyə baş çəkmişdi - KTMT-nin toplantısı bəhanəsi ilə).* Başqa sözlə, ilk sınaqdan rəsmi Moskva pis çıxmadı. Lakin problem aradan qaldırıldımı, Tacikistanın, MDB-nin xarici sərhədlərinə yaranan qorxunc təhlükə sovuşdumu?

Söyləmək çətindir. Bir şey dəqiqdir ki, İŞİD başda olmaqla, terror qruplaşmaları belə bir taktika ilə ən əvvəl böhran arealını böyütmək, böyük güclərin, o sırada Rusiyanın diqqətini Yaxın Şərqdən, Suriya və İraqdan yayındırmaq niyyəti güdür.

Aydındır ki, postsovet ölkələrinin təkbaşına İŞİD bəlası ilə mübarizə aparmaq imkanları çox məhduddur. Deməli, köməyə ya Rusiya çağırılacaq, ya da ABŞ (NATO) qüvvələri. Bu da asılı olacaq ölkə rəhbərliyinin xarici siyasətdə hansı vektoru seçməsindən. Bütün hallarda artıq yeni geosiyasi situasiyadan danışmaq olar.

***

Təsadüfi deyil ki, Tacikistan böhranı təzəcə səngiyən kimi, indi də Türkmənistan-Əfqanıstan sərhədində vəziyyətin son dərəcə gərginləşdiyi barədə məlumatlar yayılıb. Rusiyalı politoloq Aleksandr Knyazev "Nezavisimaya qazeta"da yazıb ki, Əfqanıstan ərazisindən İŞİD qruplaşmasına məxsus yaraqlılar Türkmənistanın sərhədyanı yaşayış məntəqələrindən bir neçəsini ələ keçirib (virtualaz.org).

**"Şahidlərin bildirdiyinə görə, Türkmənistanın Marı şəhərinə hər gün sərhəddə həlak olan hərbçilərin cəsədləri daşınır. Marı aerodromundan hərbi aviasiyanın sərhədə doğru intensiv uçuşları müşahidə olunur. Ümumiyyətlə, Türkmənistan istiqamətində situasiya pisləşməkdədir"**- Knyazev yazıb.

Məlumatlara görə, Türkmənistan İŞİD təhdidinə qarşı müttəfiq axtarışına çıxıb və özünün neytral statusundan imtina etməyə hazırlaşır. Lakin ehtimal olunur ki, bu təhdidə qarşı Aşqabad Rusiya ilə yox, ABŞ-dan kömək istəməyi nəzərdən keçirir. Belə ki, bu günlərdə prezident Qurbanqulu Berdıməhəmmədovun tapşırığı ilə xarici işlər naziri Rəşid Meredov Vaşinqtona uçub. Qazaxıstandakı MDB sammitinə isə Berdıməhəmmədov daha aşağı ranqlı məmuru - baş nazirin müavinini və xarici işlər nazirinin müavinini göndərib.

Rusiyalı politoloqa görə, bu fakt Aşqabadın müttəfiq qismində kimi seçdiyini aydın göstərir. Digər rusiyalı ekspert Arkadi Dubnov isə hesab edir ki, Aşqabad Rusiyanın Xəzərdən onunla razılaşdırmadan Suriyaya raket zərbələri endirməsindən narazıdır. Başqa yandan, Rusiya Türkmənistan qazının "Transxəzər" marşrutu ilə Avropaya və TAPİ marşrutu ilə Əfqanıstan, Pakistan və Hindistana nəqlinə imkan vermək istəmir. Vaşinqton isə hər iki layihədə Türkmənistanın tərəfindədir.

***

Maraqlıdır ki, Aşqabadın özündə Əfqanıstanla sərhəddə döyüşlərin getdiyini təsdiqləmirlər. "Nə İŞİD, nə Taliban? Bizdə Türkmənistanda bu haqda heç nə məlum deyil"- deyə Aşqabaddakı mənbə "Rosbalt"a bildirib.

Həmçinin Türkmənistan XİN Qazaxıstana rəsmi etiraz notası göndərərək bildirib ki, oktyabrın 15-də Astanadakı MDB sammitində Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Mərkəzi Asiyada təhlükəsizliklə bağlı situasiyadan danışarkən "guya Türkmənistan sərhədində hansısa insidentlərin baş verdiyini" bildirməsindən narazılıq ifadə edib. "Türkmən tərəfi Qazaxıstanın mövcud vəziyyətə uyğun olmayan bu bəyanatlarından olduqca narahatdır" - notada qeyd edilir.

Müşahidəçilərə görə, Aşqabad Əfqanıstanla sərhəddə baş verən qanlı olayları dünya ictimaiyyəti ilə yanaşı, öz vətəndaşlarından da gizlədir. Belə ki, Rusiya və Orta Asiya KİV-lərində Əfqanıstan-Türkmənistan sərhədində qanlı döyüşlərin getdiyinə dair xəbərlərin yayılmasından sonra Aşqabad həmin saytlara girişi bağlayıb. Xüsusi xidmət əməkdaşlarının nəzarəti altında çoxmərtəbəli binalardan peyk antenalarını sökməyə başlayıblar. Bundan əlavə, əmək kollektivlərində işçilərə başa salınır ki, "antihökumət saytlarına" girməsinlər.

***

Türkmənistandakı rejimin sərt avtoritar xarakteri nəzərə alınarsa, baş verənlərlə bağlı məlumatların ziddiyyətli və kasad xarakterini anlamaq mümkündür. Ancaq hər necə olmasa, İŞİD təhlükəsinin MDB sərhədlərinə çatdığı artıq heç bir şübhə doğurmur. Türkmənistan isə Azərbaycanın dəniz qonşusudur, bizə həmsərhəd ölkədir. MDB-nin son Qazaxıstan sammitində də terror təhlükəsi gündəmin əsas mövzularından olub ki, bu da sözsüz ki, vəziyyətin ciddiləşdiyinə dəlalət edir.

Ən böyük terror təhdidlərindən biri isə İŞİD-in "qara xəritəsi"ndə də göstərildiyi kimi, Azərbaycana ünvanlanıb. Yeri gəlmişkən, prezident İlham Əliyevin sammitdəki çıxışının mühüm hissəsi məhz bu problem, onun kökləri və terrorla birgə mübarizə yollarına həsr edilmişdi. Bu xüsusda diqqətçəkici məqamlardan biri ölkə başçısının qayıdan kimi Eldar Mahmudovu Azərbaycanın milli təhlükəsizlik naziri vəzifəsindən götürməsi oldu.

Belə qəfil qərarın motivləri haqda kifayət qədər yazılıb. Ancaq şübhə yox ki, motivlərin biri Azərbaycana ünvanlı yeni terror təhlükəsi ilə bağlıdır. Görünür, dövlət başçısı MTN-in hazırkı iş üslubu və kriteriyalarını yeni çağırışlara adekvat saymayıb. Bu çağırışlar isə rəsmi Bakını terrora qarşı mübarizədə qat-qat çevik və daha uzaqgörən strategiya qurmağa vadar edir - həm də ləngimədən.

❑ Siyasət şöbəsi



# ADP sədrindən şok dövlət çevrilişi açıqlaması

## Sərdar Cəlaloğlu: "İqtidarın içindəki qüvvələr yaranmış iqtisadi böhrandan və beynəlxalq situasiyadan istifadə edib hakimiyyəti ələ almaq istəyiblər"

**Milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifəsindən uzaqlaşdırılmasında daha bir maraqlı məqam diqqət çəkir. Hazırkı situasiya və hakimiyyət daxilində yaşananlar düz 10 il əvvəli xatırladır. 2005-ci ildə də parlament seçkilərinə bir neçə həftə qalmış-məhz 17 oktyabrda iki qüdrətli nazirin həbsi həyata keçirilmişdi.**

O zaman iqtisadi inkişaf naziri olan Fərhad Əliyev və səhiyyə naziri Əli İnsanov həbs olunduqdan dərhal sonra geniş kampaniya başladı. Nazirlərin xarici kəşfiyyatla əlaqəli olduğu və ölkədə "narıncı inqilab" etmək istədikləri iddiası irəli sürüldü. Həmin dövrdə Azərbaycan hakimiyyətinə belə bir əməliyyatı keçirmək əmrinin məhz Rusiyadan gəldiyi deyilirdi. Səslənən fərziyyələrdə vurğulanırdı ki, hakimiyyət atdığı bu addımla iqtidar daxilində mərkəzdənqaçmanı dayandırmağa çalışıb.

Maraqlıdır ki, hazırda da E.Mahmudovun vəzifəsindən kənarlaşdırılması prezident İlham Əliyevin MDB dövlət başçılarının zirvə toplantısından qayıtmasından dərhal sonra baş verdi.

Həmin sammitdə Putinlə görüşən İlham Əliyevə çox ciddi informasiyaların da verilməsi istisna edilmir.

Bəs 2005-ci ildə baş verənlərlə indi baş verənlərin arasında oxşar və fərqli tərəflər hansılardır?

**ADP sədri Sərdar Cəlaloğlunun sözlərinə görə, 2005-ci ildə baş verən hadisələrlə 2015-ci ildə indi baş verən hadisələrin oxşar tərəfi odur ki, 10 il əvvəl də Azərbaycan iqtidarının daxilində dövlət çevrilişinə hazırlaşan qüvvələr aşkarlanmışdı, indi də dövlət çevrilişinə hazırlıq görən qüvvələr aşkarlanıb:** "Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən azad olunması, MTN zabitlərinə cinayət işinin açılması, həyata keçirilən həbslər, Nəqliyyat Nazirliyinin səlahiyyətlərinin azaldılması, xüsusən də nazirliyin qoçu dəstələrinin ləğvi dövlət çevrilişinə hazırlıq içində olanların ifşası və zərərsizləşdirilməsi prosesinin tərkib hissəsidir. Azərbaycan hakimiyyətinin daxilində çevrilişə hazırlaşan qüvvələr ifşa olunub. 2005-ci ildəkindən fərqli cəhət isə odur ki, o dövrdə Azərbaycan müxalifətinin güclü olması və fəallığı nəticəsində iqtidar daxilində bəzi qüvvələr içəridən çevriliş eləməyə çalışırdılar. İndi isə Azərbaycanda ciddi iqtisadi, sosial böhran yaranmağa başladığı üçün hakimiyyətin zəifləydiyini düşünən iqtidardaxili qruplar gözlənilən hadisələrdən bəhrələnmək istəyinə düşüb çevrilişə hazırlıq görürmüşlər. Bir aksiomdur ki, ağır sosial-iqtisadi böhran olan ölkələrdə birinci siyasi böhran başlayır, siyasi böhranın əlaməti dövlət çevrilişləridir, əgər bunlar baş tutmursa, arxasınca sosial böhran gəlir. Bu da vətəndaş qarşıdurması, xarici müdaxilələr kimi arzuolunmaz hadisələrin inkişaf eləməsidir. Azərbaycanda iqtisadi böhranın başlandığını göstərən çoxlu sayda əlamətləri saymaq olar. Bu iqtisadi böhranın qarşısı alınmasa mütləq siyasi böhrana gətirəcək. Siyasi böhran odur ki, yaranmış iqtisadi durumdan ya müxalifət bəhrələnib hakimiyyəti dəyişmək istəyəcək, ya da hakimiyyətin öz içində olan qüvvələr müxalifətsiz hakimiyyəti dəyişdirmək istəyəcək. 2005-ci ildə Əli İnsanovla Fərhad Əliyev Rəsul Quliyevlə bizim apardığımız mübarizənin üstündə təşəbbüsü ələ almaq istəyirdilər. İndi müxalifətdə ovaxtkı güc və hərəkat yoxdur. Deməli, indiki halda iqtidarın içindəki qüvvələr müxalifətdən yox, yaranmış iqtisadi böhrandan və beynəlxalq situasiyadan istifadə edib hakimiyyəti ələ almaq istəyiblər. Bunun isə üstü açılıb və İlham Əliyev bu şəbəkəyə qarşı tədbirlərə başlayıb".

**S.Cəlaloğlu bəyan etdi ki, çevrilişə hazırlıq görən qüvvələr təkcə MTN naziri və bu strukturda işləyənlər deyil, bu şəbəkənin digər strukturlarda da güclü üzvləri var:** "Çox güman ki, digər bəzi nazirlər və bəzi komitə sədrləri də bu işin içindədirlər. Onların sıradan çıxarılması növbəsi çatacaq. Yeni həbs olunan MNT-çilər çox güman ki, əlavə ip ucları verəcəklər və həmin iplərin bir ucu gedib başqa nazirlərin, komitə sədrlərinin, məmurların, deputatların boğazına ilişəcək. Böyük ehtimalla proses Eldar Mahmudovun və digər iri fiqurların da həbsinə gətirib çıxaracaq. Hansı dövlətlərin dövlət çevrilişi hazırlığına xeyir-dua verdiyi də məlum olacaq".

**S.Cəlaloğlu vurğuladı ki, dövlət başçısı İlham Əliyevin Qazaxıstandan gələndən dərhal sonra Eldar Mahmudovla bağlı atdığı addım göstərir ki, bəzi məlumatlar Rusiyanın kəşfiyyat orqanları, bəlkə də şəxsən Putin tərəfindən ona çatdırılıb:** "Vaxtilə Tansu Çillərin Azərbaycanda dövlət çevrilişi hazırladığı barədə Heydər Əliyevə Süleyman Dəmirəl tərəfindən məlumat verilmişdi. Yəni bir çox hallarda hakimiyyət özünün içində dövlət çevrilişinə hazırlıq getdiyi barədə informasiyaları məhz xaricdəki mötəbər mənbədən alır".

**ADP sədri onu da dedi ki, müxalifətdən hakimiyyətə neçə aylardan bəri mesajlar verilib ki, baş verənlər Azərbaycanda çox arzuolunmaz hadisələrə gətirib çıxaracaq:** "Bizim verdiyimiz bəyanatlarda deyilirdi ki, ayrı-ayrı nazirliklərin qoçu dəstələrinin saxlanması, iş adamlarına divan tutulması, korrupsiya kimi hallar o həddə çatacaq ki, bunu edənlər dövlət çevrilişinə əl atmaqdan çəkinməyəcəklər. Biz həyəcan siqnalı verirdik ki, çox təhlükəli proseslərə hazırlıq gedir".

❑ **Etibar SEYİDAĞA**

# Putin rəqibləri ilə "rus ruleti" oynayır

## "Suriya bataqlığı"nın hansı tərəfi öz dərinliyinə çəkəcəyi hələlik məlum deyil...

**Rusiya son vaxtlar beynəlxalq rəqiblərinə meydan oxuyur. Hər halda, Rusiyanın gözlənilmədən Suriyada peyda olması belə təsəvvürlərə əsas yaradır. Ukrayna uğursuzluğundan sonra Kremlin öz siyasi iradəsini bütün dünyaya nümayiş etdirmək üçün yeni hərbi-siyasi poliqona ehtiyacı var idi. Və bu baxımdan, Rusiyaya Suriyadakı hərbi-siyasi proseslərə müdaxilə şansı tanınması Kreml üçün göydəndüşmə imkan oldu.**

Çünki Rusiya beynəlxalq mövqelərini qoruyub saxlamaq üçün əlindən gələn hər şeyi etməyə hazırdır. Ukrayna itkisi Rusiyanı güncə sıxışdırıb. Üstəlik, Rusiya Suriyanı özünün nəzarət bölgəsi hesab edir. Və Bəşər Əsəd hakimiyyəti Kreml üçün böyük əhəmiyyət daşıyır. Bu hakimiyyəti dəyişərsə, Rusiyanın Suriyadakı, o cümlədən Yaxın Şərqdəki yeganə dayağı da sıradan çıxarılmış olar.

Kreml Suriyanın gözlənilmədən Rusiyanın "ovuc"una verilməsini öz uğuru hesab etsə də, ABŞ və Qərbin bu manevrində müəyyən qaranlıq məqamların olduğu da sezilir. Çünki Yaxın Şərq məsələsinə xüsusi həssaslıqla yanaşan ABŞ-ın Rusiyanın Suriyadakı hərbi əməliyyatlarına "göz yumması" Ağ Evin uzaqgedən ssenarilərinin ola biləcəyini büruzə verir.

Heç şübhəsiz ki, Rusiyanın Suriyaya müdaxiləsi ABŞ və Qərbin razılığı ilə baş verib. Böyük ehtimalla Ağ Ev Rusiyanı da "Suriya bataqlığı"nın içərisinə çəkməyə çalışır.

Nəzərə almaq lazımdır ki, bu "bataqlıq" ABŞ və Qərb tərəfindən yaradılıb. Ancaq bu "bataqlıq" o qədər dərinləşib ki, ABŞ və Qərb artıq burada boğula biləcəyini hiss edir. Ona görə də Rusiyanın da bu "bataqlıq"da çabalamasında maraqlıdır.

Məsələ ondadır ki, Suriyadakı silahlı qruplaşmaların mütləq əksəriyyəti Ağ Evin "siyasi-texnoloji əsər"idir. Ancaq son vaxtlar bu silahlı qruplaşmalar ABŞ-ın nəzarətindən çıxmağa başlayıb. Ona görə də indi Ağ Ev özünün yaratdığı silahlı qruplaşmaların əl-ayağını Rusiya bombaları vasitəsilə yığışdırmaq məqsədi güdür. Bu, Ağ Ev üçün silahlılara onların əsl sahiblərinin kimliyini xatırlatmaq imkanları açır.

Digər tərəfdən, Rusiyanı "Suriya bataqlığı"na çəkməklə Ağ Ev həmin hərbi-siyasi poliqondakı maraq toqquşmalarını dərinləşdirməyə və "düyün nöqtələri"nin sayını artırmağa da nail olub. Belə ki, Rusiya Suriyaya hərbi müdaxilə etməklə son vaxtlar siyasi-iqtisadi cəhətdən yaxınlaşdığı Türkiyə ilə münasibətlərini qəlizləşdirib. Çünki Rusiya Əsəd rejimini, Türkiyə isə silahlı müxalif qruplaşmaları dəstəkləyir.

Bu isə son vaxtlar ABŞ və Qərbin "üzünə ağ olan" Türkiyənin yenidən ənənəvi orbitə qaytarılması baxımından, Ağ Evə sərfəlidir. Hər halda, son günlər Türkiyə və Rusiya arasındakı qarşılıqlı ittihamlar və narazılıqlar intensivləşib.

Əlbəttə, Rusiyanın Suriyaya müdaxiləsinə imkan verilməsinin bir çox səbəblərini sadalamaq olar. Ancaq bütün səbəblərin sırasında ən önəmli sayıla biləcək Ukraynada sıxışdırılan Rusiyanın "Suriya bataqlığı"nda sarsıdılması cəhdləri ola bilər.

Təbii ki, Kremldə Rusiya üçün belə bir təhlükənin mövcudluğunu anlamamış deyillər. Və buna qarşı müəyyən əks addımların planlaşdırıldığı da qətiyyən şübhə doğurmur.




Ən azından ona görə ki, Rusiyanın təcrübəsində "SSRİ örnəyi" də var. Belə ki, indi baş verənlər təxminən vaxtilə SSRİ-nin başına gətirilənləri xatırladır.

Məsələ ondadır ki, SSRİ-nin dağıdılması prosesi də illərlə davam etdirilmişdi. O dövrdə də Qərbin SSRİ ilə qarşıdurmasına paralel olaraq, neftin qiyməti sürətlə, həm də planlı şəkildə ucuzlaşdırıldı. Əsas maliyyə gəlirləri məhz neft ixracından olan SSRİ üçün bu, dağıdıcı keyfiyyətə malik olan "qurşaqdan aşağı zərbə" xarakteri daşıyırdı.

Eyni zamanda ABŞ və Qərb SSRİ üçün daha bir "ölüm tələsi"ni Əfqanıstanda qurmuşdu. SSRİ rəhbərliyinin ABŞ və Qərblə rəqabətin predmeti kimi qəbul etdiyi Əfqanıstana eyforik şəkildə hərbi müdaxilə etməsi faciəvi sonluğu yaxınlaşdıran faktor oldu. Çünki Əfqanıstan SSRİ üçün uzun illər çıxa bilmədiyi "hərbi bataqlığa" çevrildi.

Külli miqdarda maliyyə vəsaiti xərclənsə də, SSRİ "Əfqanıstan bataqlığı"ndan məğlubiyyətlə ayrıldı. Bundan qısa müddət sonra isə neftin ucuzlaşması və Qərblə kütləvi silahlanma rəqabətinin xərclərinə tab gətirməyərək, dünyanın siyasi-coğrafi xəritəsindən silindi.

İndi Rusiya ətrafında baş verənlər də təxminən bütün bunları təkrarlayır. Belə ki, neft sürətlə və məqsədyönlü şəkildə ucuzlaşdırılır. İqtisadi-ticari sanksiyalara məruz qoyulan Rusiyanın təsir dairəsinin daraldılması üçün Ukrayna böhranı da yaradılıb. Son olaraq isə illərlə Kremlin yaxın buraxılmadığı "Suriya bataqlığı" müəmmalı şəkildə Rusiyanın öhdəsinə verilib.

Göründüyü kimi, ciddi maliyyə-iqtisadi problemlərlə üzləşən Rusiya bu "hərbi bataqlıq"da batırılmağa çalışılır. Düzdür, Rusiya bu "bataqlıq"da müxtəlif manevrlərlə əsas zərbələrin ABŞ və Qərbin üzərinə düşməsinə cəhd göstərir. Kreml ABŞ və Qərbin Suriyadakı fəaliyyətinin neqativ məzmununu bütün dünyaya açmağa çalışır. Və müəyyən mənada da buna nail olur. Belə ki, Rusiya Ağ Evin dəstəklədiyi silahlı qruplaşmaları hava zərbələri ilə sarsıtmaqla yanaşı, Suriyadakı terorçulara ABŞ-ın silah yardımı etdiyini qabardır.

Belə anlaşılır ki, prezident Vladimir Putin Suriyada Rusiya üçün "tələ" qurulduğunu anlayır. Ona görə də Suriyada müəyyən mənada "rus ruleti" oynamağa çalışır. Yəni "Suriya bataqlığı"nda Rusiyanın deyil, məhz ABŞ və Qərbin batırılmasının hesablamalarını aparır. Bu baxımdan, "Suriya bataqlığı"nın hansı tərəfi öz dərinliyinə çəkəcəyi hələlik məlum deyil.

❑ **Elçin XALİDBƏYLİ**

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015



# Yoxlamaların 2 illik dayandırılması parlamentdə təsdiqləndi

## Ekspertlər bildirirlər ki, bu islahatlar kardinal dəyişikliklər üçün yetərli deyil, növbəti addımlara ehtiyac var...

**Milli Məclisin oktyabrın 20-də keçirilən iclasında "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsinə əsasən 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır.**

Eyni zamanda prezident İlham Əliyev tərəfindən imzalanmış fərmanla lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyaların İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsi nəzərdə tutulub. Qanun layihəsi millət vəkilləri tərəfindən müzakirəsinə çıxarılmadan səsə qoyularaq qəbul edilib.

Dövlət başçısının sahibkarlarla bağlı verdiyi və "iqtisadi inqilab" hesab oluna biləcək qərarı ekspertlər tərəfindən müsbət dəyərləndirilir.

**Ekspert Qadir İbrahimli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, sözügedən fərmanlar təqdirəlayiqdir:** "Normal qiymətləndirirəm. Ancaq mən hesab edirəm ki, bu, keçid dövrü üçün verilən bir qərardır. Yəni postneft dövrünə keçid üçün verilən qərardır. Yaxşı olardı ki, bu qərarın icra müddəti iki il yox, daimi olsun. Ölkədə biznes mühiti normallaşsın. Ancaq bütün hallarda bu, keçid dövrü üçün verilən qərardır. Yoxlamaların dayandırılması, həm də lisenziya verilməsi səlahiyyətinin "ASAN xidmət"ə verilməsi Azərbaycanda biznes mühitinin xeyli dərəcədə yaxşılaşmasına xidmət edəcək. Ancaq bu addımlar biznes mühitinin sağlamlaşdırılması, qeyri-neft sektorunun inkişafı baxımından tam yetərli sayıla bilməz. Daha yaxşı olardı ki, vergi sisteminin normallaşdırılması, sahibkarlardan qeyri-rəsmi ödəniş alınması, eyni zamanda gömrük sisteminin normallaşdırılması baxımından addımlar atılsın. Əgər bu addımlar da atılarsa, Azərbaycanın biznes mühitində kardinal dəyişikliklər baş verər".

**Ekspert Fikrət Yusifov isə qeyd edib ki, dövlət başçısının imzaladığı məlum fərman ölkədə sahibkarlığın sürətli inkişafına çox ciddi təkan verəcək:** "Bunu 9 ayın yekunlarına həsr olunmuş müşavirədə prezidentin çıxışının məntiqi nəticəsi kimi dəyərləndirirəm. Bu fərman qeyri-neft sektorunun inkişafı kimi hədəfə doğru atılmış olduqca mühüm bir addımdır. Heç şübhə etmirəm ki, bunun davamı da olacaq".

**Onun sözlərinə görə, sahibkarlar bu fərman və qərarlarla normal fəaliyyət göstərə biləcəklər:** "Son illər ərzində ölkə iqtisadiyyatının neft amilindən asılılığının minimuma endirilməsi istiqamətində hökumətin atdığı məqsədyönlü addımlar Ümumi Daxili Məhsulun strukturunun əsaslı şəkildə dəyişilməsinə gətirib çıxara bilmişdi. Bu kursun bundan sonrakı dövrdə daha da səmərəli aparılması və bu yolda daha yaxşı nəticələrin əldə edilməsi isə bu gün ölkədə sahibkarlığın inkişafına əngəl ola biləcək bütün maneələrin aradan qaldırılmasından birbaşa asılıdır. Bu maneələrdən biri də ölkədə sahibkarların müəyyən fəaliyyət növlərinə lisenziyaların və xüsusi icazələrin sayının həddindən artıq çox olmasıdır. Son on ildən bir qədər artıq vaxt ərzində lisenziyaların sayı iki dəfəyə yaxın artaraq 60-a çatıb. İlk növbədə sahə maraqlarından çıxış edən aidiyyəti qurumlar zərurət olan və olmayan fəaliyyət növlərinə lisenziyalar müəyyən etməklə bu yolla sahibkarları özlərindən asılı vəziyyətə salmağa və çirkin əməllərə münbit şərait yaradılmasına nail olmuşdular. Elə bu səbəbdəndir ki, oktyabrın 12-də Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkədə bu halların mövcudluğundan narahatçılığını ifadə edən ölkə prezidenti lisenziyaların artmasından narazılığını bildirib. Lisenziya və xüsusi icazələrin verilməsi sahəsində yaranmış bu vəziyyətin aradan qaldırılması yolunda elə ilk və cəsarətli addımı da prezident özü atdı. Onun oktyabr ayının 19-da "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq, lisenziya tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" imzaladığı fərman təkcə lisenziyaların və xüsusi icazələrin deyil, bütövlükdə sahibkarlığın inkişafının qarşısında əngələ çevrilmiş bütün məqamların tezliklə aradan qaldırılması yolunda inqilabi bir dönüşün başlanğıcını qoydu. Əslində çox sadə görünən bir işin- lisenziyanın əldə edilməsinin çətinliklərini yaşamış sahibkarlar prezidentin bu addımını alqışladı. Çünki bu yolun nə qədər çətin bir yol olduğunu ilk növbədə onlar çox yaxşı bilirlər. Fərmanla sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan bütün növləri üzrə xüsusi razılıq verilməsi İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilir və nazirliyə xüsusi razılıq tələb olunan fəaliyyət növlərinin sayının minimuma endirilməsi barədə ölkə başçısına təkliflər vermək tapşırığı verilib. Bütövlükdə bu məsələlərin bir mərkəzdən idarə edilməsi çox vacib idi ki, bu da öz həllini fərmanda tapdı. Lisenziya və xüsusi icazələrin İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" vasitəsilə verilməsi bu işdə vətəndaş - məmur təmaslarının əsaslı şəkildə aradan qaldırılması deməkdir. Fərmanda ən çox diqqəti cəlb edən məqamlardan biri isə sahə qurumlarının zəruri hallarda rəyinin soruşulması və bu sorğuya müəyyən edilmiş vaxtda cavab verilmədikdə onların rəyinin avtomatik olaraq müsbət olduğu qənaətinə gəlinməsidir. Hesab edirəm ki, bu məsələdə İqtisadiyyat və Sənaye Nazirliyinin mütəxəssisləri sahə qurumlarının verəcəkləri rəylərin obyektivliyini, onların qərəzli olub-olmaması hallarını da araşdırmaq səlahiyyətinə malik olmalıdırlar. Qərəzli rəy verildiyi halı müəyyən olunarsa həmən rəy müsbət rəy kimi qəbul olunmalıdır. Əks halda, sahə qurumları "mənfi rəy" verməklə sahibkarlara "təsir etmək" fürsətindən yararlana bilərlər. İqtisadiyyat və Sənaye Nazirliyinə belə səlahiyyətin olması o demək olacaq ki, lisenziya və xüsusi razılıq verilməsi işində sahə strukturları məmur-vətəndaş təmaslarından tam məhrum olacaqlar. "Elektron lisenziya" portalının yaradılması isə bu məsələdə tam dönüş edilməsi demək olacaq".

❑ **Röya RƏFİYEVA**

# Cahangir Hacıyevin bank sektorundakı sonuncu adamı da vəzifəsini itirdi

## "Bank Technique" ASC-nin Müşahidə Şurasının sədri Rövşən İsmayılovun sabiq MTN rəhbərinə də yaxın olduğu bildirilir


Rövşən İsmayılov

**"Bank Technique" ASC-nin Müşahidə Şurasının sədri Rövşən İsmayılov tutduğu vəzifəni tərk edib. APA-nın xəbərinə görə, sədr öz xahişi ilə tutduğu vəzifədən uzaqlaşıb. Belə ki, oktyabrın 16-da keçirilən bankın səhmdarlarının yığıncağında R. İsmayılovun işdən çıxması ilə bağlı yazdığı ərizəyə baxılıb və sədrin ərizəsi qəbul olunub.**




"Bank Technique"də maliyyə problemi yeni deyil. Hələ 2012-ci ilin aprelində "Texnikabank" *(o vaxt belə adlanırdı)* ASC-nin rəhbərliyi həbs edildikdən sonra bu bank Beynəlxalq Bankın İdarə Heyətinin o vaxtkı rəhbəri Cahangir Hacıyevin idarəçiliyinə keçmişdi. "Texnikabank" ASC-yə nəzarət uğrunda Mərkəzi Bank rəhbəri Elman Rüstəmov da səy göstərirdi. Amma o zaman hakimiyyətdən ciddi dəstəyi olan C.Hacıyev banka nəzarəti ələ aldı və E.Rüstəmov oyundankənar vəziyyətdə qaldı. Bundan sonra bankın adı dəyişdirilərək "Bank Technique" adlandırıldı, Cahangir Hacıyevin müavini Rövşən İsmayılov banka rəhbər gətirildi. "Bank Technique" Müşahidə Şurasının yeni tərkibi də *(Fuad Mürşüdlü və Rauf Ağayev)* C.Hacıyevin işçilərindən təşkil edildi.

C.Hacıyevin Beynəlxalq Bankdan istefasından sonra "Bank Technique"də araşdırma başladı. Çünki ən azı o səbəbdən ki, C.Hacıyevin paytaxt Bakıda elit yaşayış binalarının - "Azure Park" yaşayış kompleksinin tikintisini məhz "Bank Technique" maliyyələşdirib. Üstəlik, o da məlum olub ki, Beynəlxalq Bank kimi "Bank Technique"dən də iri məbləği, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb. Bu işdə də bəzi oliqarxların və iş adamlarının adı keçir. "Bank Technique"yə böyük məbləğdə və həm də girovsuz kredit götürmüş adamlar sırasında vəzifəli məmurların yaxın adamlarının olduğu da deyilirdi.

Qeyd edək ki, hələ may ayında "Bank Technique"nin sədri Rövşən İsmayılovun saxlanılması barədə xəbər yayılmışdı. Sonradan bankdan təkzib edilən xəbərdə deyilirdi ki, R.İsmayılov "Beynəlxalq Bank işi"nin istintaqını aparan DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Saxlanılanlar sırasında bankın "Xəzər" filialının rəhbəri olan Fərid Məmmədovun *(Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədovun qardaşı)* da adı çəkilirdi.

Eldar Mahmudovun istefaya göndərilməsindən sonra C.Hacıyevə həbsxana qapısı görünüb. Hələ bir müddət əvvəldən onun bütün adamlarının bank sektorundan təmizlənməsinə başlanılıb. Beynəlxalq Bankın bütün rəhbərliyi yeniləndikdən sonra növbənin "Bank Technique"yə çatacağı gözlənilən idi.

❑ **"Yeni Müsavat"**



# İcra başçısı işdən çıxarılan adaşını sərt tənqid etdi

## Eldar Əzizov: "Bəzi insanlar hədlərini aşıblar..."; Səbayelin polis rəisi əmisi oğlunun tənqidlərinə şahidlik edibmi?

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələr Səbayel rayonunda keçirilən hesabat yığıncağında ətraflı müzakirə olunub.**

Elektron mediada yayılan məlumata görə, yığıncaqda çıxış edənlər prezident tərəfindən ölkədə korrupsiya və rüşvətxorluğa qarşı ən ciddi tədbirlərin görülməsi hallarına toxunaraq ölkə başçısının sahibkarlığın inkişafı, onlara əngəl olan maneələrin aradan qaldırılması ilə bağlı görülən işləri fəal surətdə dəstəkləmiş.

Qeyd olunub ki, son günlərdə milli təhlükəsizlik nazirinin və nazirliyin bir qrup əməkdaşının vəzifədən kənarlaşdırılması və bəzilərinin həbsi onu göstərdi ki, ölkədə heç kim məsuliyyətdən və tənqiddən kənarda qala bilməz. Yaranmış vəziyyət onu göstərib ki, prezident tərəfindən neqativ hallara qarşı çox ciddi mübarizə aparılır.

Zala toplaşanlara müraciət edən Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, bu gün əsas prinsip «...prezidentə sadiq olmaq və qudurmamaq» olmalıdır: "Bu bizə də aiddir, hamıya da. Bəzi insanlar sərhədlərini keçiblər və buna görə də öz cəzalarını alıblar".



İcra başçısı qeyd edib ki, ədəbi dildə «qudurmaq» sözü insanlara şamil edilməsə də bu harınlamış, inkişafa əngəl törədən, öz mənafelərini güdənlərə birbaşa aiddir və rayonda bu işlərə yol verənlərə qarşı ciddi tədbirlər görüləcək. Həmçinin cavabdeh şəxslərin məsuliyyət məsələsinə toxunan icra başçısı onlara daha məsuliyyətli olmağı, vətəndaşların müraciətlərinə həssas yanaşmağı, rayon ərazisində hər hansı qanunsuz əməllərin qarşısının dərhal alınması ilə bağlı tapşırıqlar verib. Neqativ hallara yol verənlərə qarşı isə kimliyindən asılı olmayaraq ciddi tədbirlər görüləcək.

Qeyd edək ki, oktyabrın 20-də belə bir xəbər də yayılıb ki, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun əmisi oğlu İlqar Mahmudov Səbayel Rayon Polis İdarəsinin rəisi vəzifəsindən kənarlaşdırılıb. Səbayel Rayon Polis İdarəsindən "Trend"ə bildiriblər ki, İ.Mahmudov işinin başındadır. Onun işdən azad edilməsi ilə bağlı da heç bir əmr və ya qərar verilməyib. Nazirin əmisi oğlunun toplantında iştirak edib-etmədiyi bilinmir.

Daxili İşlər Nazirliyindən virtualaz.org saytına verilən məlumata görə, İ.Mahmudovun vəzifədən kənarlaşdırılması ilə bağlı daxili işlər naziri tərəfindən imzalanmış əmr də var, amma həmin əmrin icrası ləngiyir.

❑ **"Yeni Müsavat"**

# MDB ölkələrinin dollardan imtinası real deyil

## Ekspertlərə görə, belə bir mexanizmin tətbiqi uzun prosesdir, perspektivi isə müəmmalıdır...

**MDB-yə daxil olan dövlətlərin dollardan imtina məsələsi bir neçə dəfə gündəmə gəlsə də, bəyanatdan irəli getməyib. Sonuncu dəfə bir ay əvvəl bir sıra MDB ölkələrinin valyuta bazarlarının inteqrasiya edilməsi ilə bağlı imzalanmış sazişin ratifikasiyasına dair qanun layihəsi təsdiq üçün Rusiya parlamentinə təqdim olunub.**

Bir neçə gün əvvəl isə dövlət başçısı İlham Əliyev bu fikrə dəstək verib. MDB-nin Qazaxıstanda keçirilən sammitində çıxışı zamanı o bildirib ki, MDB üzvü olan ölkələrin çoxunun milli valyutaları öz dəyərini itirib: "Biz hesablaşmaları dollarla apardığımızdan bu, təbii ki, statistikada dərhal mənfi işarə ilə öz əksini tapır. Buna görə mən də Vladimir Vladimiroviç Putinin hesablaşmaları milli valyutalarla aparmağa keçid məsələsinin araşdırılması ideyasına qoşulmaq istərdim. Bu, bizim fəaliyyətimizlə bağlı olmayan müəyyən maliyyə risklərindən yaxa qurtarmağa, həmçinin milli valyutalarımızı möhkəmlətməyə imkan verər, iqtisadi inteqrasiya işinə daha çox kömək edərdi".

**Ekspertlər isə MDB ölkələrinin dollardan imtinası məsələsinə fərqli yanaşırlar. İqtisadçı Natiq Cəfərli bildirdi ki, dollardan imtina çox çətin bir məsələdir:** "Əslində bunun həyata keçirilməsi üçün çoxlu sayda addımlara ehtiyac var. MDB ölkələrinin valyutasının məzənnəsi də əslində bir-birilərinə nisbətdə deyil, məhz ABŞ dollarına nisbətdə müəyyənləşdirilir. O nisbətdə də bir-birilərinə olan məzənnə müəyyənləşdirilir. Məsələn, Azərbaycanda rublun məzənnəsi Rusiyadakı birjalarda gedən proseslərlə deyil, rublun dollara qarşı olan məzənnəsinin və Azərbaycan manatının dollara qarşı olan məzənnəsinin çarpaz kursundan müəyyənləşdirilir. Dollarsız bu məzənnənin müəyyən olunması mümkünsüz olacaq. Məsələn, Azərbaycan Qazaxıstandan taxıl alırsa, bunu təngə, yaxud manatla almalıdırsa, onun qiymətini müəyyənləşdirmək üçün taxılın dünya bazarındakı qiymətinə nəzər salmaq lazımdır. Bu da dollarla hesablanır. Dolların təngəyə olan nisbəti müəyyənləşdiriləcək, həmin məzənnəyə uyğun olaraq da Azərbaycan ödəniş edəcək. Yəni əslində öz valyutaları ilə ticarət dövriyyəsinin yaradılmasında iş daha da çətinləşir. Bir əməliyyat yerinə iş adamları iki, bəzən üç əməliyyat aparmağa məcbur olacaqlar. Dünyada ölkələrin ticarət dövriyyəsinin 80 faizə yaxını dollarla aparıldığından, inanmıram ki, Azərbaycanın daxil olduğu MDB məkanında bununla bağlı hər hansı bir ciddi addımlar atılsın. Ən azı, yaxın gələcəkdə bunun olacağına inanmıram. Digər tərəfdən, Azərbaycanın ticarət balansına baxdıqda görürük ki, əsas ticarət patnyorlarımız Avropa Birliyi ölkələri, ABŞ, İsrail, Şərq ölkələridir. MDB ölkələrində Rusiya ilk onluqda yer alır, qalan ölkələr heç onluğa da düşmür. Əsas ticarət tərəfdaşlarımız bu ölkələrdir. Bu ölkələrlə Azərbaycan məhz ya ABŞ dolları ilə, bəzən isə avro ilə ticarət etməyə üstünlük verir. Bizim əsas ticarət tərəfdaşlarımız MDB-yə daxil olmayan ölkələr olduğundan, Azərbaycanın belə bir MDB məkanında öz milli valyutaları ilə ticarət dövriyyəsi etmək istəyi bir az anlaşılmaz olacaq. Çünki azərbaycanlı iş adamları bunun üçün bir neçə əməliyyat həyata keçirməli olacaqlar. Ona görə düşünürəm ki, bu fikirlər bəyanatdan uzağa getməyəcək. Bu işin perspektivi çox müəmmalı götünür".



**Ekspert Fikrət Yusifov isə qeyd edib ki, bu, yeni məsələ deyil və artıq bir xeyli müddətdir ki, hər dəfə Rusiya hökumətinin təşəbbüsü ilə müxtəlif səviyyələrdə müzakirələrə çıxarılır:** "MDB məkanında olan ölkələrin iqtisadiyyatının dünya bazarlarında gedən mənfi proseslərdən maksimum sığortalanması və bu ölkələr arasında ticarət əlaqələrinin daha da genişləndirilməsi məsələləri son illərdə daha aktual əhəmiyyət kəsb etməyə başlayıb. Bu məqsədlə MDB ölkələri arasında aparılan ticarət əlaqələrində milli valyutalardan istifadə edilməsi təşəbbüsləri zaman-zaman gündəmə gətirilir. Söhbət əsasən MDB ölkələri arasında vahid maliyyə bazarının yaradılmasından gedir. Bu mexanizmin işlənib hazırlanması və onun tətbiqi təbii ki, uzun prosesdir. Burada atılacaq hər addım hərtərəfli ölçülüb-biçilməlidir. Ortaya elə bir mexanizm qoyulmalıdır ki, onun tətbiqindən bir ölkənin iqtisadiyyatının qazanıb, digərinin isə itkiyə məruz qalınmasına yol verilməsin. Elə bu səbəbdəndir ki, Azərbaycan prezidenti rusiyalı həmkarının bu təklifini müsbət qarşıladığını bildirməklə, "Düşünürəm ki, burada meydana çıxan riskləri minimuma endirmək üçün daha fəal məsləhətləşmələr, fikir və təcrübə mübadiləsi aparmaq olar",- demişdi. Əslində dünyada belə təcrübə əski Sovetlər Birliyində olub. Stalinin göstərişi ilə SSRİ Nazirlər Soveti 28 fevral 1950-ci il qərarı ilə rublun dollara bağlılığını ləğv edib, onun qızıla bağlanması barədə qərar qəbul etdi və bununla da ilk dəfə olaraq milli valyutanın dollara bağlılığı aradan götürülüb. BMT-nin aidiyyəti strukturları həmin dövrdə Sovet İttifaqından sənaye və elm tutumlu ixracatının səmərəliliyinin iki dəfədən çox artdığını təsdiqləmişdi. Bu qərar digər tərəfdən həmin dövrdə sovet sənayesinin bir çox sahələrinin sürətli inkişafına təkan vermişdi. Bu tarixi faktı yada salmaqla biz heç də keçmişdə atılmış hər hansı bir addımın bu gün də təkrarlanmasını təklif etmək istəyində deyilik. Bununla, sadəcə, onu demək istəyirik ki, hər bir vəziyyətdən çıxmağın daha səmərəli yollarını axtarıb tapmaq mümkündür. O cümlədən də hesablaşmaların dollar-avro məzənnəsinə bağlılığının aradan qaldırılmasının da ən səmərəli yollarını axtarıb tapmaq olar".

❑ **Röya RƏFİYEVA**

# Siyasi motivli qudalığın axırı



**Samir SARI**

**Allah Məmmədbağır Bağırzadəyə rəhmət eləsin, "Qudam, ay qudam" mahnısını bəstələyib Azərbaycan toylarına ərməğan edəndə bilməzdi ki, bu mahnı 20 ildən artıq bir müddətdə hit olacaq və santexniklərdən tutmuş yüksək vəzifəli adamlara qədər, övladı ailə quran hər kəs bu mahnının sədaları altında oynayacaqlar.**

Doğrusu, birdən-ikiyə nazir övladlarının toyunda olmamışam, amma eşitdiyimə görə, nazirlər də "Qudam, ay qudam" mahnısına oynayırlar - özlərinə xas, ağır-ağır. Nazirə dingildəmək yaraşmaz axı.

Bu ölkədə dəbdir, prokurorlar, rəislər, məhkəmə sədrləri bir-biri ilə quda olduğu kimi, nazirlər də bir-birilə quda olurlar. Sırf nazir qudalıqları şərt olmasa da, ranq ranqa uyğun olmalıdır.

Bəzən başqa kombinasiyalar da olur. Məsələn, hansısa İH başçısının oğlu hansısa nazir müavininin qızını alır, yaxud "Qudam, ay qudam" mahnısına oynayanların bir cinahına içində milyardlar fırlanan bank sədri rəhbərlik edəndə onunla üzbəüzdə komitə sədri qol yelləyir, bel fırladır.

Əslində burda qəbahət bir şey yoxdur, müəllimlər öz müəllim yoldaşlarıyla, həkimlər öz həkim həmkarlarıyla oturub-durduğu kimi yüksək mənsəbli şəxslərin də oturub-durma çevrələri birdir. Ona görə də gənclər o görüşlərdə bir-birini görür, tanış olur, bir-birini bəyənir, sevir, evlənirlər, nazirlər də məcburən quda olur.

Holdinq şirkətinin qızının sürücü oğlana vurulması, nazir oğlunun bərbər qızına aşiq olması və tərəflərin bir-birini dəlicəsinə sevməsi kimi hallar adətən seriallarda olur, elə seriallarda da qalır. Hətta maqazin verilişlərindən aydın olur ki, serialda holdinq rəhbərinin aşiq oğlu rolunu oynayan, İstanbulun dar-düdük, tozlu məhəlləsində böyümüş, bir neçə il öncəyə qədər kasıb oğlan olmuş aktyorun özü də əsnaf qonşusunun qızını istəmir, gedib başqa serialda varlı qız rolunu oynayan aktrisanı alır.

Amma söhbət bundan getmir, ondan gedir ki, bəzən böyük vəzifəli adamlar bu cür qohumluqları siyasi motivlərlə qururlar - bir-birinə arxa-dayaq olmaq üçün. Nə qədər olmasa da quda nazirlər saray başbilənlərinin nəzərində daha güclüdürlər. Yeri gələndə bir-birini müdafiə edir, başqalarından daha üstün mövqeyə çıxırlar.

Hərçənd vaxt gəlir, qudalıq kara gəlmir, əksinə, yanan qudanın oduna o biri quda da alışır. Bu, əsasən o halda olur ki, qudalar qardaş kimi olurlar, bir oturub-dururlar, mövqeləri üst-üstə düşür, vaxtaşırı müzakirə aparır, eyni planlar qururlar. Belə olandan sonra gərək o biri qudanı da vurub aşırasan.

Mehriban olmayan qudalarla bağlı vəziyyət fərqlidir, qudasının siyasi baxışlarını bölüşməyən, məkrli planlarına ortaq olmayan yaxşı quda "vurulmuş" pis qudanın leşinin altında qalmır. Onun vəzifəsinə dəymirlər, amma artıq adam daha yüksək vəzifəyə ümid edə bilməz. Qudası onun özünü olmasa da, şansını vurdurmuş sayılır.

"Vurulan" qudaya görə qızını və ya gəlinini boşatdıran, ən azı buna cəhd edən qudalar da olub. Elə nazir quda olub ki, oğlu onun "yoldaşını boşa, canımızı qurtaraq" təklifi ilə razılaşmayıb, deyib, mən xanımımı boşamıram, vəzifə də cəhənnəmə olsun, sərvət-filan da.

Yəni hər gələhəgəlin bir gethagedi olduğu kimi, bir zamanlar "Qudam, ay qudam" mahnısına eyni anda oynayanların da bir-birinin ayağından pudluq daş kimi sallandığı gün gəlir.

Budur, MTN şefi Eldar Mahmudovu işindən çıxarıblar, onun qudası Cahangir Hacıyevin də işi ağırdır. İki qudanın ikisi də "vurulub". Nəqliyyat naziri Ziya Məmmədovun bu gün-sabah vəzifədən götürüləcəyi deyilir, camaat isə gözünü onun qudasına - kənd təsərrüfatı naziri Heydər Əsədova dikib. Düşünürlər ki, görəsən, Heydər müəllimə sədəmə toxunmayacaq ki.

Ona görə də gərək yüksək vəzifəli qudalarla bağlı aydın xətt, vahid konsepsiya olsun. Bəzi kriteriyalar müəyyənləşməlidir: 1. Quda qudaya cavabdeh ola bilməz. 2. Qudalıq əqidə birliyi demək deyil. 3. Cəhənnəmə gedən quda özünə yoldaşı qudaları arasında seçməyə bilər. 4. Əbədi qudalıq yoxdur, əbədi maraqlar var. 5. Sadiq quda qudurmuş qudanın qadasına şərik deyil və s.

Qudalıq yaxşı institutdur, amma minusları da var.

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015



# Xüsusi xidmət orqanları bizi necə dinləyir...

## Müasir texnikanın şok yenilikləri, ilginc izlənmə vasitələri barədə bilmədiklərimiz...

**Bu günlərdə bütün ölkədə əsas müzakirə mövzusu milli təhlükəsizlik nazirinin işdən çıxarılması, MTN-də aparılan həbslər və bunun arxasındakı səbəblərdir. Hələlik ortada dolaşan versiyalardan biri isə gizli telefon dinlənilmələri, məxfi yazışmalara müdaxilə ilə bağlıdır. Bu, hər zaman ölkə insanının "qorxulu röya"sı olub. Sosial mənsubiyyəti, ictimai çəkisindən asılı olmayaraq, insanlarda daim dinlənilmə, izlənmə xofu olub.**

Ona görə də sayı gün-gündən artan "izlənmənin qarşısını alan yeni proqramlar" internetə çıxır, insanlar onu telefonlarına yükləyir, özlərini sığortalamağa çalışırlar.

Mövzunun aktuallığını nəzərə alıb, "Yeni Müsavat" telefonları dinləmənin, izləmənin üsulları barədə maraqlanıb və ortaya yeni detallar, maraqlı məlumatlar çıxıb.

### Məkanları belə dinləyirlər...

21-ci əsrin ən məşhur izləmə vasitələrindən biri məkan dinləmədir. İçərisinə casus proqram yüklənmiş telefonlar yerləşdikləri məkanın da dinlənməsini həyata keçirir. Bu casus proqramlar istifadəçi öz telefonunu söndürdükdə belə çalışa bilir. Çünki proqram telefonun söndürmə düyməsini basdıqda sanki telefon sönmüş kimi ekranı qaraldır və telefonun üstündəki işığın yanmasına mane olur. Beləliklə, telefon sönmüş kimi görünsə də, əslində işləməkdə davam edir.

### Məhkəmə qərarı olmadan dinləmə həyata keçirilə bilməz...

İzləmənin ən "zərərsiz" növü heç şübhəsiz ki, mobil telefonların dinlənilməsidir. Bu barədə bir neçə dəfə yazdığımız üçün detalların üzərində dayanmayacağıq. Texnologiya aləmindən anlayışı olan hər kəs özü mobil telefonunun dinlənilməsini aydınlaşdıra bilər. Bunun bir neçə əlaməti var ki, onları yadda saxlayıb, telefonunuzun dinlənilməsi barədə təxminlər yürüdə bilərsiniz.

Bunlardan biri telefonun şarjının çox tez bitməsidir. Bundan əlavə, qarşı tərəflə danışıq zamanı müxtəlif küy, hətta açıq şəkildə tanımadığınız insanın səsini eşidirsinizsə narahat olmağa dəyər. Mobil telefonunuzda ondan istifadə etmədiyiniz halda belə kompüterin və ya səsgücləndiricinin yanında olduğu zaman müxtəlif müdaxilələrin səsini eşidə bilərsiniz. Dostunuza zəng etdiyiniz zaman əlaqənin çox gec baş tutduğunu və ya əksinə, əlaqənin gec kəsildiyini müşahidə etmisinizsə, bu da telefonunuzun dinlənildiyinə işarə ola bilər. Ümumilikdə telefonunuzda qəribəliklər varsa, məsələn, öz-özünə sönüb yanırsa, bu da sizə bir işarədir.

Dünya təcrübəsində telefon dinləmələri yalnız məhkəmənin qərarı ilə həyata keçirilir. Bu dinləmələrə isə siyasətçilər, dövlətin mənafeyinə qarşı çıxış edən insanlar, hansısa qruplaşmalarda şübhəli bilinən şəxslər məruz qala bilərlər. Əgər siz yuxarıda sadalananlar sırasında deyilsinizsə və telefonunuzun dinlənilməsi ilə bağlı şübhələriniz öz təsdiqini tapıbsa, bununla bağlı məhkəməyə müraciət edə bilərsiniz.

### Kalkulyator, "siçan" və daha nələr - hamısı evi dinləyə bilir

Adi məişət əşyalarını xatırladan cihazların köməyi ilə evi dinləmək mümkündür. Bunlardan biri də ölçüləri uyğun olan istənilən quruluşdakı kalkulyatorların içinə yerləşdirilə biləcək bir alətdir.

GSM dinləmə cihazı kalkulyatorun yanında iki ədəd, 1 mm ölçüsündə şarj deşiyi ilə heç bir şəkildə diqqət çəkməyən, quruluşu çox özəl olan bir şarj adaptoru da yerləşir. Onun içindəki sim kartın telefon nömrəsini dünyanın harasında olursunuz olun, hər hansı telefondan zəng edərək 50 kv.m-lik bir ərazini çox rahatlıqla, çox yüksək həssaslıqla dinləyə bilərsiniz.

Kompüterlərin "siçan"ı da zaman-zaman dinləmə cihazı funksiyasına çevrilir. Belə ki, "USB Mouse"un içinə yerləşdirilmiş GSM dinləmə modulu istifadə edildiyi auradakı səslərin məsafə məhdudiyyəti olmadan dinlənilməsini mümkün hesab edir. Cihaza ("mouse"a) SİMkart taxılandan sonra sistem istifadəyə hazırdır. Hər hansı telefondan taxmış olduğunuz karta aid nömrəyə zəng edəndə cihaz avtomatik olaraq açılacaq və yerləşdiyi otağı çox yüksək səs keyfiyyəti ilə dinləməyinizi təmin edəcək. Heç bir formada bayıra səs vermir və fərq edilməsi də mümkün deyil.

Maraqlıdır ki, hətta kompüter söndürüləndə tərkibindəki lithium batareya sayəsində 4 gün gözləmə müddətinə malikdir və 4.5 saat müddətində fasiləsiz dinləmə həyata keçirilə bilər. Kompüter işlədiyi müddətdə isə avtomatik olaraq batareyası "zaryadka" yığır və enerji sıxıntısı olmadan dinlənə bilərsiniz.

Eyni dinləmə alətini kompüterin monitorunda da gizlətmək mümkündür. Monitorun içinə yerləşdirilən professional dinləmə cihazına taxılacaq bir SİM kart ilə dünyanın hər yerindən alətin olduğu yeri dinləmək mümkündür. Yüksək səs keyfiyyəti ilə 50 m2 sahədəki səsləri məsafə məhdudiyyəti olmadan istənilən zaman dinləmək mümkündür. Ofis, ev dinlənilməsi üçün son dərəcə praktik və fərq edilməsi mümkün olmayan bir gizli dinləmə sistemidir. Kompüter daim enerji yığdığı üçün bu dinləmə alətinin də "zaryadka"sız qalma ehtimalı yoxdur. "Adsl" modem dinləmə cihazı, telsiz telefon dinləmə cihazı da bu kateqoriyadandır. Onların içinə də həmin kiçik alətləri yerləşdirməklə müvafiq məkanları dinləmək mümkündür.

Bu gün Azərbaycan dünyanın müxtəlif ölkələri ilə antiterror koalisiyası çərçivəsində, transmilli cinayətkarlığa qarşı mübarizədə yaxın əməkdaşlıq edir. Ona görə də Azərbaycanın xüsusi xidmət orqanları belə xüsusi dinləmə vasitələri ilə təmin edilmiş ola bilər. Bu, nadir hal deyil. Təhlükəsizlik firmaları da bunu edirlər. Üstəlik, baha deyil. Bunlar xüsusi mağazalardan satın alınır. Evdə dinləmə aparılması yeni təcrübə deyil. Sovet dönəmində də evdə dinləmələr aparılırdı. Araşdırma obyekti olan insanların dinlənilməsi üçün evlərinə, iş otaqlarına, daha çox tavanda, ya da divar kağızının altında dinləmə qurğuları yerləşdirilirdi. Bu əməliyyat məxfi şəkildə aparıldığı üçün heç kimin xəbəri olmurdu. SSRİ dövlət təhlükəsizliyi orqanlarının fəaliyyəti qanundan kənar idi. Sonradan qanunda düzəlişlər oldu.

Qanuna əsasən, telefon dinləmələri qanunla mümkün deyil. Amma Azərbaycanda hələ də sovet təcrübəsi tətbiq olunur. Öncə məlumatlar əldə edilir. Sübut-dəlil tamam ayrıdır. Əməliyyat məhsullarının sübut-dəlilə çevrilməsi üçün məhkəmə faktına çevirmək lazımdır. Qanunvericiliyə heç kim riayət etmir. Bu gün əslində dinlənmə ilə bağlı qərar verilirsə, onu iki ay geriyə keçirirlər. Oradakı danışıqlardan sübut kimi istifadə olunur.

Fakt onu göstərir ki, sıravi vətəndaş dinlənildiyindən şübhələnə bilməz. Belə ki, bu, ancaq texniki vasitələrlə mümkündür. O sahədə xeyli inkişaf gedib, artıq dinləmə zamanı klassik qaydada mikrofonlardan istifadə edilmir. Mikrosxem formalı çiplər olur. Məlumatları toplayıb şifrələyir. Çip məlumat ötürdükdə onun fəaliyyəti aşkarlana bilər. Bu isə qeyri-mümkündür. Xüsusi xidmət orqanları peşəkar işləyir.

Bu sayaq dinləmə əməliyyatları faktdan daha çox məlumat əldə etmək üçündür. Onun sözlərinə görə, məhkəmələrdə çox nadir hallarda videomüşahidə, ya da dinləmə qurğularının fəaliyyəti nəticəsində ortaya çıxan nəticələr fakt kimi təqdim edilir.

### 5 yolu var, amma...

**Bununla belə, internetdə mobil telefonunuzun dinlənildiyini anlamağın yolları ilə bağlı xeyli material yer alır. Onlardan ən geniş yayılanları nəzərə çatdıraq:**

**1. Telefonun batareyası həddindən çox qızırsa:**

Telefonda çox danışanda onun qızması təbiidir. Ancaq uzun müddət ona toxunan olmayıbsa və aparat qızıbsa, demək, onun içərisində nə isə baş verir.

**2. Telefonun enerjisi tez bitirsə:**

Düzdür, bəzən enerji aparatları zaman keçdikcə yararsız hala düşür. Ancaq istənilən halda üç gün kifayət edən enerjinin bir saatda bitməsi təəccüblüdür.

**3. Telefonu bağlayanda gecikmə olursa:**

Telefon bağlananda işığının da eyni anda sönməsi lazımdır.

**4. Telefonda baş verən qəribə hadisələr:**

Əgər telefonunuzun işığı özü-özündən yanıb sönürsə, bağlanırsa, sizi kim isə dinləyə bilər.

**5. Telefondan cızıltı səsləri gəlirsə:**

Bəzən belə səslərin gəlməsi qüllədə olan problemlərdən irəli gələ bilər. Amma səs və cızıltı daima gəlirsə, bu, telefonun dinlənilməsi deməkdir.

### Öncə mesaj göndərirlər, sonra...

**Türkiyə Kompüter Mühəndisləri və Proqramçıları Dərnəyinin sədri Yılmaz Sönməz mobil telefonların IMEI adlanan kodları öyrənildikdə asanlıqla dinlənilə bildiyini deyib. Onun bildirdiyinə görə, mobil telefonlarda dinləmə aşağıdakı ardıcıllıqla həyata keçirilir:** "Mesaj göndərilir - dinlənəcək olan mobil telefona mahnı, şəkil və ya video yüklənəcək bir internet adresinin yazıldığı SMS göndərilir. Mobil telefon istifadəçisi ona gələn bu SMS-i açıb, içindəki internet adresinə daxil olduqda mobil telefon GPRS üzərindən internetə bağlanır və özəl olaraq hazırlanmış "trojan" adlanan casus proqramı mobil telefona yüklənir. İdarə telequlaqda - bu casus proqramı ilə dinləniləcək şəxsin mobil telefonu artıq telefonu dinləmək istəyənlərin nəzarətinə keçir. Casus proqram həmin mobil telefona zəng gələn və ya ondan zəng edilən zaman bunu qeyd edir və bir səs qovluğu şəklində istənilən adresə yenə internet vasitəsilə göndərir. Mobil telefon bu prosesi həyata keçirərkən, telefonun istifadəçisi heç bir şey hiss etmir.

SMS-lər də izlənilir - mobil telefona yüklənən casus proqram təkcə danışıqları qeyd edib istənən ünvana çatdırmaqla kifayətlənmir. Bu casus proqramlar dinlənilən mobil telefona gələn və gedən SMS-lərin kopyasını da dinləyən şəxsin mobil telefonuna və ya elektron ünvanına göndərir.

❑ Sevìnc TELMANQIZI

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015

**Azərbaycan torpaqlarını on illərdir işğalda saxlayan Ermənistan Gürcüstanın azərbaycanlıların kompakt yaşadığı ərazilərində də müxtəlif təxribatlar törədir, vaxtaşırı bu ərazidəki soydaşlarımızı oğurlayır, mal-qaranı ələ keçirib aparırlar. Bu gün Azərbaycanda 1 il 3 ay əvvəl Kəlbəcərdə girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin durumu ilə bağlı narahatlıq var. Lakin Azərbaycanda çoxları bilmir ki, Bolnisi rayonunun Faxralı kənd sakini, 35 yaşlı Turqay Mikayılov 3 aydan artıqdır erməni girovluğunda saxlanılır.**

# Girov soydaşımızın 5 yaşlı qızı: "Atamı istəyirəm..."

## "Yeni Müsavat"ın əməkdaşı ermənilər tərəfindən girov götürülmüş gürcüstanlı soydaşlarımızın ailəsindən yazır





## "Bizə də deyirlər ki, heç kəsə heç nə danışmayın"





Qarabağ həqiqətlərinin təbliği üçün Gürcüstana səfər edən Qarabağ Azadlıq Təşkilatının (QAT) nümayəndə heyətinin üzvləri ilə birlikdə Faxralı kəndinə yollandıq. Azərbaycanlıların kompakt yaşadığı 1500-ə yaxın təsərrüfata malik kəndin ucqar nöqtəsində yerləşən evin həyətində bizi ailə başçısının xanımı və kiçik yaşlı uşaqları qarşıladı. Qısa müddətdə girovdan xəbər gözləyən qonum-qonşular da başımıza toplaşdı. Ancaq QAT sədrinin müavinləri Fəridə Əsgərova, İlqar Əliyev, mətbuat xidmətinin rəhbəri Əzizə Muradova, rejissor Elxan Xanəlizadə, həmçinin "Qarapapaq" Cəmiyyətinin sədri Elşad Əliyevin gəlişinin məqsədini biləndən sonra girovun xanımı qəti şəkildə heç nə danışa bilməyəcəyini söylədi. Ardınca onun qaynının həyat yoldaşı da kəskin şəkildə "biz sizə heç nə danışa bilmərik, böyüklər icazə vermir" deyib söhbətdən imtina etdilər.

**İsrarımızdan sonra Turqayın həyat yoldaşı ehtiyatlanmağının səbəbini açıqladı:** "Bizim tək qorxumuz budur ki, Azərbaycan bu işə qarışmasın. Çünki ermənilərin Azərbaycanla davası var, Azərbaycan qarışsa, vəziyyət pisləşə bilər. Bizə də deyirlər ki, heç kəsə heç nə danışmayın. Ermənilər elə biləcək ki, o da Azərbaycandandır. Ona nəsə eləyə bilərlər. Qorxumuz buna görədir".

Soruşsaq da, adını belə deməkdən imtina edən evin xanımına izah edirik ki, ən pisi evin kişisinin ermənilər tərəfindən oğurlanıb aparılmasıdır. Bundan sonra susub-danışmamaq onun vəziyyətinə müsbət təsir edə bilməz. Ancaq məsələnin ictimailəşdirilməsi, gündəmdə saxlanılması onun azadlığını sürətləndirə bilər. İlqar Əli və Fəridə Əsgərova söhbət əsnasında dedilər ki, onlar Gürcüstanın Azərbaycandakı səfiri ilə görüşdə Turqay Mikayılovun qanunsuz olaraq aparılması və İrəvanda saxlanılması barədə məlumat veriblər, onun azad olunması tələbi ilə aksiya keçirəcəklərini deyiblər. Görüşdən sonra da bu məsələni diqqətdə saxlayacaqlar, rəsmi Tiflisə azərbaycanlının azad olunması üçün ciddi tədbirlər görməklə bağlı müraciətlər edəcəklər. Bütün bunlar isə yalnız işin faydasınadır. Bütün bu kimi izahatlardan sonra ailə üzvləri qısa da olsa, bəzi məlumatları verməyə razılaşdılar.

Məlum oldu ki, Turqayın ata-anası rəhmətə gedib. Gülcan və Gülyaz adlı 5 və 4 yaşlı qızı, 4 aylığında oğlu var.

Hazırda ailədə işləyən yoxdur. Doğmaları deyir ki, Turqay özü işləyirdi, təsərrüfatla, qoyunçuluqla məşğul olurdu. O da gedəndən sonra ailənin çətin günləri başlayıb. Heç bir yerdən də onlara kömək yoxdur. Rəsmi qurumlar da sadəcə vəd verir. Turqayın qonşuluğunda yaşayan qardaşı da çətin vəziyyətdə yaşadığı üçün ailəyə ciddi yardım etmək imkanından məhrumdur.

Hadisənin baş vermə səbəblərinə gəldikdə, öyrənirik ki, T.Mikayılov həmin gün Ermənistanla sərhəddə yerləşən Yırğançay kəndi tərəfdəki yaylaqlarda qoyun otarırmış. Ancaq necə olubsa yolu azıb və Ermənistan sərhədini keçərək Cücə kəndinə gedib, orda da saxlanılıb.

Bu hadisə iyulun 23-də baş verib.

**Borçalı (Kvemo-Kartli) bölgəsinin qubernatoru Paata Xizanişvili Turqayın bir həftəyə azad olunacağına söz verib. Bunu Turqayın həyat yoldaşı söylədi:** "Bu ay kəndə gəlmişdi, getdik başımıza gələnləri danışdıq. Dedi, sizə söz verirəm, ayın axırına kimi Turqayı evə qaytaracağıq". Ailə hələ ki ümidlə gözləyir. Ancaq Turqaya işgəncə verilə biləcəyindən ehtiyatlanırlar.

**Turqaya hər 10 gündən bir ailəsi ilə telefon əlaqəsi saxlamaq imkanı verilir. Yoldaşı deyir ki, sonuncu dəfə oktyabrın 7-də zəng etmişdi:** "Soruşdum ki, ağrıyan yerin varmı, yemək-zad verirlərmi? Dedi, narahat olmayın, yeməyimi verirlər, bir dənə ürəyim ağrıyır, amma dərman verirlər. Ancaq inanmıram, kimdir ona dərman verən".

Uçuq-sökük evdə yaşayan ailədən ayrılanda balaca qızcığazlardan arzu-istəyini soruşduq. 5 yaşlı Gülcan utana-utana "atamı istəyirəm" deməklə hamımızı kövrəltdi...

***

**Qeyd edək ki, Gürcüstanda nəşr olunan "Müvəkkil" qəzeti də T.Mikayılovun girov saxlanılmasından bəhs edən material dərc edib. Yazıda qubernatorun vədi ilə bərabər, onun "ailəyə yardım edildiyi" barədə fikirləri də əksini tapıb. "Qeyrət" Xalq Hərəkatının rəhbəri Əlibala Əsgərov isə deyib ki T. Mikayılovun hər hansı günahı olmadığı üçün Ermənistan onu azad etməyə məcburdur:** "Ermənistan-Gürcüstan münasibətlərində görünəcək dərəcədə soyuqluq yoxdur. Hesab edirəm ki, əgər bölgənin rəhbəri məsələyə bu qədər ciddi yanaşırsa, əlbəttə, bu proses tezləşə bilər. Çünki nə Ermənistan, nə də Gürcüstan rəsmiləri bölgədə yeni bir gərginliyin yaradılmasında maraqlıdır".

***

Yeri gəlmişkən, T.Mikayılov erməni girovluğundakı yeganə azərbaycanlı deyil. Söhbət Azərbaycandan itkin və girov götürülmüş 4500-dən çox bacı-qardaşımızdan getmir. Bolnisinin Kəpənəkçi kəndinin sakinləri Ramazan Məmmədov və Yolçu Göyüşov 1993-cü ilin sentyabrında Ermənistan hərbçiləri tərəfindən oğurlanaraq aparılıb, o vaxtdan heç bir xəbər-ətər yoxdur. Bölgəyə getmişkən, onların da doğmaları ilə görüşməyi özümüzə borc bildik. Bu görüşlə ailə üzvlərinin yarasının qaysağını qoparacağımızı bilsək də, girovlarımızın taleyi ilə maraqlanmaq istədik.

**Bolnisi rayonunun Kəpənəkçi (Kvemo-Bolnisi) kəndinin sakini Binəli Göyüşov dedi ki, itkin düşən Yolçu Göyüşov onun əmisi oğludur:** "1993-cü il sentyabrın 3-də əmim oğlunu 53 baş qaramalla bir yerdə ermənilər meşədən aparıb. Kəndimizdən təxminən 30 km-lik məsafədən aparılıb. O vaxtdan çox axtarışlar olub. Ora getmişik, ordan gəliblər, dövlətin rəsmi orqanları çalışıb. Ancaq heç bir nəticəsi olmayıb". **Qardaşı Zülfüqar Göyüşov o günü belə xatırlayır:** "İki nəfəri 53 baş malla birlikdə apardılar. Mən onların dalınca getdim, amma Ermənistan tərəfə keçməyə qorxdum, geri qayıtdım. Qardaşım 1937-ci il təvəllüdlüdür, qızları, nəvələri qalıb". Ramazan Məmmədov 1943-cü il təvəllüdlüdür. Onun da doğmaları indiyədək heç bir xəbər öyrənə bilməyiblər.

İki ağsaqqal soydaşımızın oğurlanmasının üstündən 22 il keçib, ancaq hələ də gözlər yollarda, qulaqlar səsdə qalıb. Ermənistanın türklərə qarşı düşmənçilik siyasətinin nəticəsində Borçalıdakı bacı-qardaşlarımız da heç olmasa əzizlərinin ölü-qaldısından xəbər tutmaq imkanından belə məhrum edilib. Vəziyyət belədir, Qarabağ savaşı təkcə Azərbaycan-Ermənistan sərhədi, yaxud iki ölkənin qoşunlarının təmas xəttində getmir. Beynəlxalq təşkilatlar isə ermənilərlə sülh danışıqları ilə Qarabağ məsələsinin çözüləcəyinə inandırmaq istəyir, ermənilər üçünsə türkün hansı ölkədə yaşamasının fərqi yoxdur...

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 233 (6261) 21 oktyabr 2015

# Yediyimiz çörəklərin tərkibindən xəbərdarıqmı?

## Azad İstehlakçılar Birliyinin sədri: “İstehlakçılar bizə dietik çörəklərin rənglənməsi ilə bağlı da şikayət edirlər”








**Çörək bizim qida rasionumuzun əsasını təşkil edən vazkeçilməz qida məhsuludur. Bu gün paytaxtın çörək piştaxtalarında istənilən qiymətə və keyfiyyətə çörəyə rast gəlmək mümkündür. Hazırda ölkəmizdə Moskva, Ukrayna, İtaliya və Almaniya istehsalı olan çörəklər də satılır. Yerli istehsal olan çörəklərin qiyməti 10-50 qəpik arasındadırsa, bu çörəklərin qiyməti 80 qəpik və 7 manat arasında dəyişir.**

Çox zaman alıcılar yerli istehsal olan zavod çörəyi alarkən onu bir gün qaldıqdan sonra yeməyin mümkün olmamasından şikayətlənir. Eyni zamanda mağazalarda təndir çörəyi adı ilə satılan çörəkləri də yeyən zaman insanda sanki saqqız çeynəyirmiş kimi bir təəssürat yaranır. Bəzi dietik qara çörəklərin də iy verdiyi və içərisinin yapışqan kimi olduğu da edilən şikayətlər sırasındadır.

Qeyd edək ki, bu gün çörəklərdə “kartof” (mezinterikus) xəstəliyinin olmasına dair tez-tez fikirlər səslənir. Emal prosesində unun tərkibində bəzi bakteriyalar olur. Bərbad saxlanma şəraitində olan nəmlik və temperatur bu bakteriyalar üçün münbit şərait yaradır. Nəticədə onlar çoxalaraq unun zülal, karbohidratı ilə qidalanırlar və unda kartof xəstəliyinin əmələ gəlməsinə səbəb olurlar. “Kartof” xəstəliyinin çox yayılmasının bir səbəbi də unun ələkdən keçirilmədən istehsala buraxılması göstərilir. Qeyd edək ki, piştaxtaya çıxarılan çovdar çörəyinin saxlanma müddəti 72 saat, buğda unundan hazırlanan çörəklərin saxlanma müddəti isə 24-48 saatdır. Ancaq səhər alınan bəzi çörəklərin artıq axşama yeyiləsi vəziyyətdə olmaması bizdə çörəyin hazırlanma prosesində nəyinsə düzgün aparılmadığı və bunun da səhhətimizə zərər verə biləcəyi fikrini yaradır. Paytaxt ərazisində apardığımız müşahidələr zamanı mağazaların əksəriyyətində satılan nə yerli, nə də xarici çörəklərin üzərində onun keyfiyyəti, yararlılıq müddəti, saxlanma qaydaları haqda məlumat ala bildik. Hətta satıcılardan xarici istehsal olan çörəklərin harada necə hazırlandığını soruşduqda, sadəcə olaraq, “bilmirik” cavabını aldıq.

Qeyd edək ki, çörəyin daşınması və dükanlara çatdırılması da tələblərə uyğun şəkildə aparılmır. Belə ki, əksər hallarda çörək maşınların ya arxa oturacaqlarına, ya da yük yerlərinə qoyulur. Satış obyektlərində çörək və çörək-bulka məmulatları əslində təmiz, quru, yaxşı ventilyasiya olunan otaqlarda 20-25 dərəcədə və 75 faiz nisbi rütubətdən yuxarı olmayan şəraitdə saxlanılmalıdır. Onları kəskin iyli məhsullarla, məsələn, balıq, tütün məmulatları, sabun, ətriyyatlar və sairə bir yerdə saxlamaq olmaz. Bu məmulatların qalaq şəklində, otağın divarlarına bitişik, bir başa yerdən yığılması və ya yerdən 35 sm-dən az, ticarət zalında isə 60 sm-dən az məsafədə yerləşən rəflərdə saxlanılması yolverilməzdir. Çörək məmulatlarının yaxşı və təzə qalması üçün onların üstü örtüklə örtülməlidir. Çörəyə əl vurmaq yolverilməzdir. Ancaq təəssüflər olsun ki, bir çox mağazalarda bu qaydalara əməl edən yoxdur. Çörəklərin bəziləri alıcı istəyən zaman satıcı öz əli ilə sellafon torbaya qoyur. Həmçinin kiçik mağazalarda çörəklərin bəzən toz basan karton qutularda saxlanıldığı da müşahidə edilir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da çörəklərlə bağlı onlara istehlakçılar tərəfindən şikayətlər gəldiyini dedi:** “Azad İstehlakçılar Birliyinə hər gün çörəklərlə bağlı telefon zəngləri gəlir. Məlumdur ki, çörəklərin saxlanma müddəti 72 saatdan artıq deyil. 72 saatdan sonra çörək artıq bərkiməli və qurumalıdır. İstehlakçıları çörəklərin tez və gec xarab olması da narahat edir. Məsələn, ölkə bazarında uzunmüddətli alman çörəyi vardı ki, bu çörəyin bir il yararlılıq müddəti var idi. Əlbəttə, belə çörəyin tərkibinə çoxlu kimyəvi maddələr qarışdırılır. İstehlakçılar bu çörəkdən narazı idilər. Biz ona yararlılıq müddətinin qoyulmasına nail olduq. Əgər çörək 72 saatdan tez xarab olursa, bu o deməkdir ki, artıq un xəstələnib. Buna da ”kartof" (mezinterikus) xəstəliyi deyilir. Adətən belə çörəklərin içərisi palçıq kimi yapışqanlı olur. Belə olan təqdirdə, deməli, ya un xəstədir, ya da həmin çörəyi bişirən avadanlıq mikroblarla zənginləşib, ona görə də bu cür çörək əmələ gəlir. İstehlakçılar bizə dietik çörəklərin rənglənməsi ilə bağlı da şikayət edirlər. Bəzən çörəyə çay suyunun qarışdırılması kimi faktlarla bağlı bizə müraciətlər olunur. Çox təəssüflər olsun ki, bu cür problemlər yaşanır və istehlakçıların hələ ki tələbinə cavab verən yüksək keyfiyyətli çörək kifayət qədər deyil. Xüsusən regionlarda bununla bağlı ciddi problemlər var. Təsadüfi deyil ki, 2011-ci ildə biz ABŞ-ın İnkişaf Agentliyinin layihəsini həyata keçirmək üçün Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanını təsis etmişik və bu, dövlət qeydiyyatına alınıb. Ancaq bu vaxta kimi bizim bir dənə çörək istehsalçısı Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanına layiq görülməyib. Ona görə də biz deyirik ki, çörək istehsalçıları təhlükəsiz çörək istehsal etsinlər ki, biz də həmin nişanı onlara şamil edək və onları dünyanın 123 ölkəsində təbliğ edək".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Quliyeva Sədaqət Şəmsi qızına məxsus “Laçın” kiçik dövlət müəssisəsinin nəzdində “Laçın” firmasına məxsus sənədlər, möhür, ştamp və sahibkara aid VÖEN itdiyi üçün etibarsız sayılır.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

**Birinci Avropa Oyunları ərəfəsindən başlayaraq Bakıda marşrut avtobuslarının hərəkət istiqamətində dəyişikliklər aparılır. Sonuncu dəyişiklik isə oktyabrın 19-da oldu. 79, 207,85, 24, 30 və 49 saylı avtobusların hərəkət istiqamətlərində müvafiq dəyişikliklər edildi. Bəzi avtobusların hərəkət xətti uzadıldığı halda, bir qismi qısaldılıb. Aparılan dəyişikliklər isə əhali tərəfindən birmənalı qarşılanmayıb. İnsanlar söyləyirlər ki, dəyişiklik xəbərdarlıqsız olduğu üçün onlar mənzilbaşına vaxtında çata bilmirlər.**

# Avtobusların marşrutunun dəyişdirilməsi Bakıda xaos yaradıb

## Ekspert: "Sanki bu işdə hansısa sahibkarın marağı var..."







Məsələ ilə bağlı daha dəqiq məlumatlar almaq üçün musavat.com-un əməkdaşı Bakı şəhərində yerləşən avtobus dayanacaqlarında olub.

Xüsusilə əvvəllər "28 May" metrosuna qədər gələn 30 və 49 saylı avtobusların indi "Xətai" stansiyasına kimi işləməsi insanların yolda qalmasına səbəb olub. Dəyişikliklərdən xəbərdar olmayan sərnişinlər hesab edirlər ki, mövcud yeniliyin onlar üçün xeyri yoxdur.

**Sərnişin Südabə Səfərova məsələ ilə bunları söylədi:** "Əvvəllər metronun "Elmlər Akademiyası" stansiyasının qarşısından 5 saylı avtobus işləyirdi. İndi onun nömrəsini dəyişiblər. Doğrudur, hərəkət istiqamətində dəyişiklik yoxdur. Ancaq elə mən də daxil olmaqla, neçə insan nə qədər 5 saylı avtobus gözləmişik. Bunlar dəyişiklik edirlər, ancaq misal üçün, "gomap" kimi intellektual idarəetmə sistemlərində həmin dəyişikliyə uyğun yeniliklər etmirlər. Ümumiyyətlə, son zamanlar Bakıda sanki bu sahədə xaos yaranıb. Belə iş olmaz axı... Avtobusların trafaretlərinin üzərindən qələmlə əvvəl gedəcəyi yerin üstündən xətt çəkib deyirlər ki, "həmin yerə daha getmir"".

Eyni zamanda şəhərin şimal və cənub girişləri istiqamətinə yerləşən qəsəbələrə hərəkət edən avtobusların hərəkət istiqamətlərində edilən dəyişikliklər də insanların yollarda qalmasına, şəhərdə sıxlığın yaranmasına səbəb olub.

Sərnişinlər bildirirlər ki, getdikləri ünvana çatmaq üçün əvvəl bir avtobusdan istifadə edirdilərsə, indi bu mümkün deyil.

**Problemlərlə bağlı nəqliyyat üzrə ekspert Ərşad Hüseynov da musavat.com-a açıqlama verib. O, məsələ ilə bağlı aşağıdakıları söyləyib:**

"İyul ayında Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyası (YHTK) tövsiyə etmişdi ki, şəhərin küçə və prospektlərində hərəkət qrafikləri optimallaşsın. Ancaq burada diqqətli olmaq lazımdır. Misal üçün, sərnişin dünən getdiyi yolda bu gün baxır ki, başqa marşrut xəttə buraxılıb. Nəticədə isə çaşqınlıq yaranır. Bunu elə etmək lazımdır ki, insanlara narahatlıq yaratmasın. Çox təəssüf ki, artıq xətlərdə dəyişiklik edildikdən sonra məlumat verirlər ki, filan marşrut ləğv olunub və sairə. Mənə elə gəlir ki, edilən dəyişiklikdə məqsəd heç də optimallaşdırma deyil. Adama elə gəlir ki, sanki bu işdə hansısa sahibkarın marağı var. Şəhərdə həm sərnişin yükünü götürə bilən, həm də avtonəqliyyat infrasturukturuna uyğun olan avtobuslar xəttə buraxılmalıdır".

**Tıxaclar barəsində də danışan ekspert bildirib ki, əslində iri avtobusların xəttə buraxılması sıxlığı aradan qaldırmağa yardım edən haldır:** "Tıxacların aradan qaldırılmasında ən yaxşı vasitə elə avtobuslardan səmərəli istifadə etməkdir. Yəni ictimai nəqliyyat elə yüksək səviyyəyə çatdırılmalıdır ki, əhali könüllü olaraq öz şəxsi avtomobillərindən az istifadə etsin. İctimai nəqliyyat ideal olmalıdır. Ancaq biz hələ bundan çox uzağıq".

**Məsələ ilə bağlı Nəqliyyat Nazirliyinin İntelektual İdarəetmə Mərkəzi ilə əlaqə saxladıq. Mərkəzin operatoru kimi özünü təqdim edən Xalidə xanım musavat.com-a açıqlamasında bildirib ki, mövcud problemlər "BakuBus"ın avtobuslarının xəttə buraxılması ilə bağlıdır:** "Avtobuslar xəttə buraxıldıqca problem öz həllini tapacaq. Bu işlərin yaxın zamanda yekunlaşmasını gözləyirik. Eyni zamanda onu da qeyd edim ki, mövcud dəyişikliklər öncəsi qurumun mətbuat xidmətinin rəhbəri Şəfa Mehmanqızı televiziya vasitəsilə xalqı məlumatlandırır. Yaranan problemlər müvəqqətidir".

❑ Əli RAİS

# Bakıdakı marşrut avtobuslarına nəzarət gücləndirilir



**Bakıda marşrut avtobuslarına yeni GPS trekerlər quraşdırılacaq. APA Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə (NİİM) istinadən bildirir ki, GPS treker adlanan telematik blok nəqliyyat vasitəsinin olduğu ərazi, hərəkətin sürəti, yanacağın sərfiyyatı, avadanlığın vəziyyəti (mühərrik işə salınıb, qapı açıq qalıb və s.) barədə məlumatı real vaxt rejimində dispetçer mərkəzinə ötürür.**

Xüsusilə sürücülük qabiliyyətinə nəzarət sistemi yolda baş vermiş pozuntular (kobud sürücülük, sürət həddinin aşması və s.) haqqında məlumatı toplayır və işçi heyətinin fəaliyyətinin qiymətləndirilməsi sisteminə göndərir. Həmin sistemin köməyi ilə dispetçer istənilən müddət ərzində və müxtəlif səfərlər üzrə sürücülük qabiliyyətinin dəqiq qiymətləndirilməsinə nəzarət edə bilər.

Bort avadanlıqlarından fərqli olaraq yeni quraşdırılacaq GPS-lər sürücülərin əllə müdaxilə edə bilməyəcəyi hissələrdə (avtobusda) quraşdırılacaq. İstənilən kənar müdaxilə barəsində (avadanlığın söndürülməsi, zədələnməsi və s.) məlumat NİİM-in proqram təminatında dərhal əks olunacaq. Mühərrik işlək vəziyyətdə olsa belə, avadanlıq 4 gün ərzində fasiləsiz məlumatlar (avtobusun sonuncu dəfə olduğu yer barədə) ötürə bilir.

# "NİİM Nəqliyyat Nazirliyindən alınsın, DİN-ə verilsin..."



**Millət vəkili Əli Hüseynli Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin Nəqliyyat Nazirliyindən alınaraq Daxili İşlər Nazirliyinin tərkibinə verilməsini təklif edib.**

"Qafqazinfo" xəbər verir ki, Ə. Hüseynli qeyd edib ki, bu qurumun tərkibində olan funksiyalar yol polisində də var: "Sözügedən mərkəzə də büdcədən pul ayrılır. Yaxşı olardı ki, bu qurum da Daxili İşlər Nazirliyinin tərkibinə birləşdirilsin".

**Millət vəkili Adil Əliyev də deputat həmkarının təklifini dəstəkləyib:** "Bəzən yol polisindən işıqforun yanmamasını soruşanda deyirlər ki, bu səlahiyyət bizdə deyil. Həmin anda da NİİM-ə zəng etmək çətin olar. Yaxşı olardı ki, bu qurum Daxili İşlər Nazirliyinin tərkibinə birləşdirilsin".

# Sürücülük vəsiqəsi olmadan sərnişin daşıyanlar həbs olunacaq



**Azərbaycanda nəqliyyat vasitələrinin idarəetmə hüququ olmayan şəxslər tərəfindən idarə edilməsi qaydalarının pozulmasına görə cəzalar sərtləşdirilib. "Report" xəbər verir ki, Milli Məclis bununla bağlı İnzibati Xətalar Məcəlləsinin 152-ci maddəsinə əlavələr edib.**

Əlavələrə görə, ümumi istifadədə olan nəqliyyat vasitələrini idarə etmək hüququ olmadan belə nəqliyyat vasitəsinin sərnişin daşımaqla idarə edilməsinə görə 15 gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Digər əlavəyə əsasən, nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Bundan başqa, nəzərdə tutulan xəta nəticəsində zərərçəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərərçəkən şəxsə maddi zərər vurulmasına görə iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

# Nazir Neftçalada vətəndaşları qəbul edəcək

**Nəqliyyat naziri Ziya Məmmədov Neftçalada vətəndaşları qəbul edəcək. Bu haqda Nəqliyyat Nazirliyinin saytında yer alan məlumatda qeyd olunur ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması, mövcud nəqliyyat problemlərinin araşdırılması və həll edilməsi məqsədi ilə nəqliyyat naziri Ziya Məmmədov 23 oktyabr 2015-ci il tarixində Neftçala şəhərində Salyan, Biləsuvar və Neftçala rayonlarında yaşayan vətəndaşları qəbul edəcək.**

Saytda nazirin qəbuluna gəlmək istəyən vətəndaşların qeydiyyatının 21 oktyabr 2015-ci il tarixdə 9:00-dan 18:00-dək müvafiq olaraq aşağıdakı ünvanlarda aparılacağı da diqqətə çatırılır:

- Salyan "20 saylı Yol İstismarı İdarəsi" (Salyan şəhəri, 20 Yanvar küçəsi-1)

- Biləsuvar "21 saylı Yol İstismarı İdarəsi" (Biləsuvar şəhəri, Vaqif küçəsi, 1)

- Neftçala "39 saylı Yol İstismarı İdarəsi" (Neftçala şəhəri, 33-cü məhəllə)

❑ E.MƏMMƏDƏLİYEV



YENİ MÜSAVAT

Son səhifə

N 233 (6261) 21 oktyabr 2015

# Xoşbəxt cütlüklər daha uzun ömür sürür

**İnsanın uzunömürlülüyünə təsir edən əsas faktor xoşbəxtlikdir. Musavat.com xəbər verir ki, belə bir qənaətə ABŞ-dakı Şimali Karolina Universitetinin alimləri gəliblər.**



Alimlərə görə, insan bütün həyatı boyu kasıbçılıq içində yaşaya və bir neçə xəstəliyi ola bilər. Ancaq əgər bu zaman insan xoşbəxtdirsə, daha çox yaşayacaq, nəinki zəngin və sağlam, lakin bədbəxt həmyaşıdı qədər.

Bu yöndə tədqiqatlar ilk dəfədir aparılıb. Sınaq aparılan müxtəlif yaş qrupları 13 il ərzində müşahidə altında olub. Yekunda alimlər maraqlı nəticələrə gəliblər. Sən demə, bədbəxtlər xoşbəxtlərdən 14% hallarda daha tez ölürlər.

Tədqiqatda fərqli ailə və maddi vəziyyətə, fərqli sağlamlığa malik 30 min nəfər iştirak edib. Alimlərin fikrincə, xoşbəxtlik durumunun uzunömürlülüyə təsiri onunla əlaqəlidir ki, pozitiv insanlar stressin öhdəsindən daha asan gəlirlər. Onlar həmçinin sıxıntılar üçün daha az əsas tapır, dünyanı optimist rəngdə görürlər. Bu da onlara daha çox yaşamağa imkan verir.



## Bəy nikahdan imtina etdi, törənə evsizlər dəvət edildi

**Amerikada 35 min dollara başa gələn toy başlayar-başlamaz bəy nikahdan vaz keçib. Gəlinin anası isə toyu dayandırmayıb, təşkil edilmiş törənə evsizləri dəvət edərək kürəkəninə dərs verib.**

Amerikanın Kaliforniya əyalətində təşkil edilən toyun gəlini Quinn Duanenin xəyalı bəyin toya gəlməməsi ilə yıxılıb. Lakin gəlinin xəyallarının yıxılması başqalarının xəyallarının gerçəkləşməsinə səbəb olub. Belə ki, şəhərin ən gözəl yerlərindən birində təşkil edilən toya gəlinin anası evsizləri dəvət edib. Qızı ilə nişanlısının ayrılmasından sonra çıxış edən qadın toyu təxirə salmaq əvəzinə evsizlərə yemək verməyin və onların əylənməsi üçün şərait yaratmağın daha yaxşı olduğunu deyib. Qadının sözlərinə görə, evsizlərə həyatlarındakı ən gözəl günü yaşatmaq da olduqca önəmlidir. 120 nəfərlik tədbirdə gəlinin ailəsindən başqa 90 nəfər evsiz iştirak edib. Tədbirdə iştirak edən Erica Kraycraft adlı qadın 5 övladı ilə birlikdə gündə 3 dəfə yemək yemək üçün mübarizə apardığını deyib.

# 12 saniyəyə su tapançası ilə bank yardı

**Avstraliya vətəndaşı olan bir gənc cəmi 12 saniyə ərzində Banqkok bankından oğurluq etməyə nail olub. Bunun üçün o, oyuncaq tapançadan istifadə edib. Qısa zaman ərzində dünyaya səs sala bilmiş bu oğurluğun səbəbi gənc oğrunun özünə təyyarə bileti almaq üçün pulunun olmaması imiş. Oğurluq isə çox sadə və ənənəvi qaydada həyata keçirilib. Oğlan əlində oyuncaq tapança tutaraq banka daxil olub və tapançanı başqa insanların gözü qarşısındaca kassirə tuşlayıb. Təşvişə düşmüş kassir tələsik halda oğruya 170 min bat verib ki, bu da təxminən 4800 ABŞ dolları edir. Pulu əldə edən oğru dərhal bankı tərk edərək qaçmağa başlayıb. Amma o, elə də uzağa gedə bilməyib, bir neçə dəqiqə sonra polislər tərəfindən yaxalanıb. Oğru 23 yaşlı Avstraliya vətəndaşıdır. O, maliyyə çətinlikləri yaşadığı üçün ölkəsinə qayıda bilmədiyini, bilet almaq üçün oğurluq yolunu seçdiyini etiraf edib. Yerli hüquq-mühafizə orqanları Avstraliya səfirliyinə hadisə ilə bağlı məlumat veriblər. Hazırda 10 ilə qədər həbs cəzası alacağı gözlənilən oğrunun istintaqı davam edir.**





## Evi soyulduğu üçün yeni kəşfə imza atdı

**Avstraliyada baş verən oğurluq hadisəsi alimlərin 1000 ildən çoxdur üzərində çalışdığı, lakin daha asan yolunu tapa bilmədiyi bir işin asanlaşmasına səbəb olub. Alim Kang Liangın evinə oğru girməsindən sonra hadisə yerinə gələn polislər heç bir izə rast gəlmədiyi üçün alim oğrunu tapmağın daha asan yolunu müəyyən edib. Bu məqsədlə o, parlayan barmaq izlərini kəşf edib. Bunun üçün yeni bir qrup işləyib və 30 saniyədən qısa müddətdə barmaq izlərini parladan yeni bir maye kəşf edib. Liangın hazırladığı yeni maye barmaq üzərində qalan yağ, asid və duz kimi maddələrlə reaksiyaya girir və yaşıl rəngdə parlamağa başlayır. Barmaq izinin daha aydın görünməsi üçün işığın rəngi də dəyişdirilə bilir.**




**QOÇ** - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir.

**BUĞA** - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra qonaqlıq gözlənilir.

**ƏKİZLƏR** - Bu gün zehni işləri azaldıb daha çox dincəlməlisiniz. Fəaliyyətə isə ümumiyyətlə, ara verməyiniz məsləhətdir. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

**XƏRÇƏNG** - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

**ŞİR** - Nahara qədər bütün ciddi işləri təxirə salın. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Bədxah insanlarla rastlaşma ehtimalınız olduğundan bacardığınız qədər təmkin göstərin.

**QIZ** - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atın. Bu gün "çağrılmamış qonaq" rolunda çıxış etməyin.

**TƏRƏZİ** - Olduqca rəvan bir gündür. Çoxsaylı və maraqlı hadisələrlə rastlaşacaqsınız. Amma acıdil adamların atmacalarına təmkinlə yanaşmalısınız. İki sürpriz də gözlənilir.

**ƏQRƏB** - Fiziki cəhətdən zəiflədiyinizdən fəaliyyət barədə az düşünün. Hansısa riskli işə baş qoşmağa dəyməz. Saat 15-dən sonra şəxsi büdcənizdə müəyyən artımlar gözlənilir. Səfərə çıxmayın.

**OXATAN** - Ulduzlar süst olduğunuzu göstərsə də, ümidsizləşməməli, həyata nikbin nəzərlərlə baxmalısınız. Planetlərin müsbət konfiqurasiyası bu təqvimdə yeni layihələri müzakirə etməyi məsləhət görür.

**OĞLAQ** - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı qoruyun.

**SUTÖKƏN** - Bu gün enerjiniz zəif olsa da, perspektivlərinizlə bağlı apardığınız bütün sövdələşmələr uğurlu olacaq. İşgüzar görüşlərdən qaçmayın. Bu təqvim alqı-satqı üçün də düşərlidir.

**BALIQLAR** - Adətən ilin bu çağlarında mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Keçmişdə baş verən münaqişələrin müzakirəsindən çəkinin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 1000 güldən ibarət buket



**Özbəkistanın paytaxtında bir gənc 1000 güldən ibarət buket hazırlatdıraraq hər kəsi heyrətləndirib. Adı açıqlanmayan gənc buket üçün ən azı 3 min 700 dollar xərclədiyini deyib. İngiltərənin "Daily Mirror" qəzetinin xəbərinə görə, hazırlanması bir neçə gün davam edən buket qadının evinə yük maşını ilə göndərilib. Lakin evdə buketin sığa biləcəyi yer olmadığından güllər qadının yaşadığı binanın ətrafına yerləşdirilib. 4 nəfər böyük buketi çətinliklə daşıya bilib.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.